

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 47 (24.482)
6 dekabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Prezident İlham Əliyev:

## Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik



Prezident İlham Əliyevin apardığı daxili siyasətin əsas prioritetləri sırasında Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi və layiqli həyat şəraitinə malik olması öndə gəlir. ***“Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, problemləri, təhlükəsizliyi və başlıcası onun xoşbəxtliyi dayanır”***, – deyən sözü imzası qədər dəyərli olan dövlətimizin başçısı ötən illər ərzində dayanıqlı sosial-iqtisadi inkişafa malik müasir Azərbaycanın timsalında bu fikirlərin real nəticəsini yaradıb. Son 7 ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması məqsədilə 4 milyon vətəndaşı əhatə edən, illik əlavə maliyyə tutumu 7,6 milyard manat olan 5 sosial islahat paketinin icrası ilə bu ideya əməli fəaliyyətdə özünü ən yüksək səviyyədə təsdiqləyib. 2003-cü ildən indiyə kimi imzalanan fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb.

Səhifə ➡ 2

# Yaşıllığa bürünüb cənnətə dönən Qarabağ



Deyirlər ki, doğma el-obanın intizarı təkcə insanları göynətmir, sakinlərinin nəvazişinə, nəfəsinə həsrət qalmış ağacı, gülü-çiçəyi də qurudur. Torpaqlarımız işğala məruz qalandan, camaatımız ata-baba yurd yerlərindən didərgin düşəndən dağlarında, düzlərində bitən güllər, ağaclar insanların getdikləri səmtə boylana-boylana qalmışdı. Onlar da doğmalarını axtarır, mehriban hənirtisini soraqlayırdılar. Biz də illərlə cənnət Qarabağımıza həsrət qalanda təkcə torpaq həsrəti ilə yanmadı ürəyimiz, qatil düşmənin əlində Topxana meşəsinin tüstüsü ərşə qalxanda qəlbimiz parçalandı. Kəlbəcərdə, Laçında, Zəngilanda meşələr düşmən baltasına tuş gələndə ağacların səssiz harayı qulağımızı batırdı.

Səhifə ➡ 3

# Prezident İlham Əliyev: Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik

*(əvvəli 1-ci səhifədə)*

Aztəminatlı ailələrin məşğulluğunun artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində reallaşdırılan layihələr ölkəmizdə öz bəhrələrini verir, insanların həyat səviyyəsi yaxşılaşır, yoxsulluq minimuma endirilir. Bütün bu məsələləri özündə ehtiva edən "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın əsas hədəfləri sırasında ölkəmizdə dinamik və uzunmüddətli iqtisadi tərəqqinin təmin edilməsi şəraitində insan kapitalının inkişafı, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, inklüziv əmək bazarının inkişafı və layiqli əməyin təminatı yer alır. Digər bir mühüm dövlət sənədi "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə isə qeyd edilir ki, 2025-ci ildən sonra Azərbaycanda yoxsulluq ünvanlı şəkildə tam aradan qaldırılacaq, keyfiyyətli səhiyyə xidmətlərinə və təhsilə çıxış imkanları genişləndiriləcək.

İnsanların sosial rifahının yaxşılaşdırılması və yoxsulluğun aradan qaldırılmasında Prezident İlham Əliyevin fərman və sərəncamları ilə son bir neçə ildə əməkhaqqı və sosial ödənişlərin ardıcıl surətdə artırılmasını nəzərdə tutan sosial islahat paketlərinin həyata keçirilməsi də xüsusi paya sahibdir. 2018-2023-cü illərdə 4 belə sosial islahat paketi icra olunub. Ümumilikdə, 4 milyondan çox vətəndaşı əhatə edən həmin islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7 milyard manata yaxındır. Bu islahatlar nəticəsində 2018-2023-cü illərdə ölkəmizdə minimum pensiya 2,5, minimum əməkhaqqı 2,7, ortaaylıq pensiya 2,1, yaşa görə ortaaylıq pensiya 2 dəfə, orta aylıq əməkhaqqı 70 faiz, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə, median əməkhaqqı 2,1 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, işsizliyə görə sığorta ödənişlərinin ortaaylıq məbləği 52 faiz artıb. Azərbaycan Prezidentinin imzaladığı sənədlərlə 10 yeni sosial ödəniş növü – müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və sair təsis olunub.



Başa vurmaqda olduğumuz 2025-ci ildə cəmiyyətdə sosial ədalət prinsiplərinin bərqərar edilməsi, vətəndaşların layiqli həyat şəraitinə malik olması, işlə təminatı, o cümlədən əmək münasibətləri, əməyin mühafizəsi, övladlığagötürmə, əlilliyi olan şəxslərin reabilitasiyası, şəhid və qazi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətlərində tədbirlər uğurla reallaşdırılmaqdadır. Dövlət başçısının tapşırıqları əsasında 2025-ci ildə növbəti – 5-ci sosial islahat paketi icra olunub və 4 milyon vətəndaşı əhatə edən bu paket üzrə sosial ödənişlərdə yeni artımlar üçün illik əlavə 1,4 milyard manat ayrılıb. Minimum əməkhaqqı 2025-ci ilin əvvəlindən 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılıb. Bir çox qurumlarda çalışanların, hərbi qulluqçuların, xüsusi rütbəsi olan əməkdaşların, dövlət qulluqçusu olmayan işçilərin maaşları, tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri və sair artırılıb. Ümumilikdə, 5-ci sosial islahat paketi 1,9 milyon vətəndaşı əhatə etməklə, illik əlavə maliyyə yükü 885 milyon manat, əmək pensiyalarının ilin əvvəlində 8,1 faizlik indeksasiyası ilə birlikdə isə illik əlavə maliyyə yükü 1 milyard 400 milyon manat təşkil edib.

Azərbaycan dövlətinin sosial siyasətində şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarının həyat səviyyəsinin yüksəldilməsi əsas məqsədlərdən hesab olunur. Reallaşdırılan bütün sosial layihələr çərçivəsində bu kateqoriyadan olan insanlar xüsusi diqqətdə saxlanılır, onlar Prezidentin aylıq təqaüdləri, pensiya və müavinətlərlə təmin edilirlər. Həmçinin bu həssas təbəqədən olanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da öncüllük təşkil edir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, şəhid ailələrinə, əlilliyi olan şəxslərə, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə, Azərbaycanın Milli qəhrəmanlarına, beşdən çox uşağı olan qadınların və müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına, valideyn himayəsindən məhrum uşaqların qəyyumlarına və digər bir sıra kateqoriyalardan olanlara ödənilən müavinət və təqaüdlər cari il iyulun 1-dən orta hesabla 15 faiz artırılıb. Şəhid ailələri üçün Prezidentin aylıq təqaüdü 600 manatdan 700 manata çatdırılıb, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü artırılıb. Bu ilin oktyabr ayında daha 100 mənzil şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Ümumilikdə, ötən dövrdə bu kateqoriyalara 16 min mənzil, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7800 avtomobil verilib.

Ölkəmizdə həyata keçirilən sosial islahatların tərkib hissəsi kimi əmək qabiliyyəti olmayan və pensiya yaşına çatan vətəndaşların yaşayış təminatını yaxşılaşdırmaq vacib amil kimi diqqətdə saxlanılır. 2025-ci ilin mənzərəsi də bu barədə kifayət qədər yüksək fikirlər formalaşdırır. Belə ki, bu ilin 10 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 516 mln. manat və ya 10 faiz çox olmaqla, 5 mlrd. 920 mln. manat vəsait yönəldilib. 2025-ci ilin əvvəlindən bütün növ pensiyaların 8,1 faiz indeksləşdirilərək artırılması, fevralın 1-dən minimum pensiyanın 14,3 faiz artımla 280 manatdan 320 manata çatdırılması təmin edilib. Aparılan islahatların nəticəsidir ki, cari ildə əhaliyə pensiya ödənişləri ötən illə müqayisədə 10 faiz, pensiyaların orta məbləği isə 9 faiz artaraq 540 manat, yaşa görə pensiyanın orta məbləği isə yenə də 9 faiz artaraq 576 manat təşkil edib. Yanvar-oktyabr aylarında 35 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 173 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 964 milyon manat, Prezident təqaüdləri üzrə 617 milyon manat ödənilib. Bu ilin on ayında 133 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən isə 854 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib. Sosial müavinət 513 min, Prezidentin aylıq təqaüdü isə 403 min nəfəri əhatə edir. Göründüyü kimi, həm say, həm də məbləğ belə deməyə əsas verir ki, sosial təminata yönələn xərclərin həcmi 2025-ci ildə də artmaqdadır.

İnsanların rifah halının və firavanlığının təminatı istiqamətində atılan mütərəqqi addımlardan biri də, heç şübhəsiz, işsizliyin aradan qaldırılmasına xidmət edən məşğulluq proqramlarının hazırlanaraq reallaşdırılmasıdır. Məşğulluq proqramları regional və yerli səviyyədə məşğulluq vəziyyətini yaxşılaşdırmaq üçün məşğulluq siyasətini digər siyasətlərlə daha yaxşı əlaqələndirmək üçün tətbiq olunan yerli tərəfdaşlıq proqramlarıdır ki, burada bir sıra vacib istiqamətlər əsas götürülür. Bu istiqamətlərə resursların effektivliyini və səmərəliliyini, eləcə də müəyyən olunmuş hədəf qruplarına dəstəyi artırmaq, mövcud iş yerlərini qorumaqla yeni iş yerlərini yaratmaq, həyat standartlarının davamlılığını qorumaq daxildir. Məqsəd yeni iş yerlərinin yaradılması, yerli sakinlərin məşğulluğunun artırılması, insanlara iş tapmaq üçün köməyin göstərilməsi və ələlxüsus da əhali qrupları arasında bərabərsizliyin azaldılması, yəni sosial ədalətin təminidir. İşsiz və işaxtaran şəxslərin münasib işlə təmin edilməsi, onlara peşə maraqlarının formalaşdırılması və peşə seçiminə istiqamətləndirilməsinə dəstək məqsədilə peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi, peşə hazırlığının təşkili, sahibkarlığın təşviq olunması və kiçik ailə təsərrüfatlarının yaradılması ötən bir neçə ildə öz bəhrələrini verməkdədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin xətti ilə ölkədə əhalinin məşğulluq səviyyəsinin artırılması, həmçinin işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin olunması məqsədilə həyata keçirilən çoxşaxəli fəaliyyətlərin nəticəsində bu ilin 10 ayında 491,8 min şəxs aktiv məşğulluq tədbirlərinə cəlb edilib. Onlardan 158 min şəxs münasib işlərlə təmin olunub, 16,3 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. Bu ilin yanvar-oktyabr aylarında 15,5 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 302 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

DOST konsepsiyası beynəlxalq səviyyədə Azərbaycanda son illər aparılan sosial islahatların mühüm uğurlarından biri kimi dəyərləndirilir. Bu konsepsiya əmək, məşğulluq, əlillik, reabilitasiya, sosial müdafiə və sosial təminat sahələrinə dair 15 istiqamət üzrə 160 sosial xidmətin "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, vətəndaş məmnunluğuna uyğun təqdim olunmasını təmin edir. 2025-ci ilin yanvar-oktyabr aylarında DOST mərkəzlərində 739 min vətəndaşa xidmət göstərilib ki, özlüyündə bu rəqəm həm mərkəzlərin fəaliyyətindəki operativliyi, həm də inam, etibar amilləri ilə əlaqədardır. Vurğulamaq yerinə düşər ki, 2019-cu ilin may ayından ötən dövrdə ölkəmizdə artıq 7 DOST mərkəzi, Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Qarabağ Regional DOST Mərkəzinin Şuşada filialı, Kəlbəcər DOST məntəqəsi açılıb və proses yaxın gələcəkdə digər bölgələri də əhatə edəcək.

Bəli, 2025-ci ilin mənzərəsi belə deməyə əsas verir ki, ölkəmizin hərtərəfli güclənməsi, iqtisadiyyatın qüdrətlənməsi, son nəticədə, bir məqsədə – Azərbaycan vətəndaşının rifahına, sağlam yaşayışına, etibarlı gələcəyinə xidmət edir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik".***

**Nail ƏSGƏROV**



# Yaşıllığa bürünüb cənnətə dönən Qarabağ

(əvvəli 1-ci səhifədə)

***Otuz il erməni vandalları Qarabağın flora və faunasını məhv edərək bu bölgənin biomüxtəlifliyinə və təbii sərvətlərinə böyük ziyan vuranda, əkinəyararlı əraziləri davamlı olaraq yandıranda, qiymətli ağac növlərinin kökünü kəsəndə, faydalı qazıntıları amansızcasına talan edəndə, su mənbələrinə və torpağa zəhərli tullantıları atanda, su terroru törədəndə sanki dünya da gözsüz, qulaqsız olmuşdu. Bu biabırçılığa, qanunsuz əməllərə biganə yanaşırdı beynəlxalq təşkilatlar. Mənasız bəyanatlar isə kağız üzərində qalırdı.***

*Ziyanın miqyası*

Əvvəllər Qarabağ ərazisində meşə örtüyünün sahəsi 260 min hektar idi, lakin torpaqlar azad edildikdən sonra işğal dövründə, təxminən, 54 min hektar meşə örtüyünün ermənilər tərəfindən məhv edildiyinə şahid olduq. Ermənilərin özlərinin məlumatına görə, yalnız 2014-2018-ci illərdə Qarabağda bütün Ermənistana nisbətən 2,3 dəfə çox ağac kəsilib (175 300 kubmetr oduncaqla müqayisədə 404 800 kubmetr). Eldar şamı, qoz, palıd, xurma və sair daxil olmaqla qiymətli ağac növləri ciddi zərər görüb.

İllər sonra Qarabağı canımız bahasına geri alanda şahid olduqlarımız bizi dəhşətə gətirdi. Cənab Prezidentin dediyi kimi, sanki vəhşi qəbilə keçmişdi oralardan. Onlar mədəni irsimizə verdikləri ziyan kimi üstündə gəzdikləri torpağa da qənim kəsilmişdilər. Yazda taxıl əkib payızda biçir, sonra zəmiləri atəşə verirdilər. Dəfələrlə şahid olsaq da, bu kimi hadisələrə səsimizi heç kimə duyura bilmədik. Və beləcə, yüzillik ağaclar məhv oldu.

*Əbədi qayıdışın simvolu*

Prezident İlham Əliyev deyib: ***"Laçın rayonunda bizim böyük meşə sahələrimiz var – ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".***

Döyüş meydanında və siyasi masada qələbə qazanıb torpağımızı geri aldığımız gündən keçən 5 il ərzində Müzəffər Sərkərdənin ***"Qarabağ cənnətə çevriləcək"*** sözünün əməli işdə şahidi olduq. Qarabağa gedən zəfər yolu dağların başına dolanıb çəkildi. Uca binalar inşa olundu, tarixi abidələr bərpa edildi, insanlar öz yurduna qayıtdılar. Qələbədən dərhal sonra Prezident cənab İlham Əliyevin göstərişi ilə ermənilərin ekologiyaya vurduqları ziyan aradan qaldırılmağa başlanıldı. Böyük qələbənin birinci ildönümündə, Zəfər Günündə 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər. Bununla da Topxana meşəsinin bərpasına başlanıldı. Ölkə başçısının işğaldan azad olunmuş bölgələrə hər səfəri təməlqoyma, açılış mərasimləri ilə bərabər ağacəkmə aksiyaları ilə də yadda qaldı. Torpağın bağrına açılan yaralar əkilən ağaclar, boy göstərən yaşıllıqlarla sarıldı.

2022-ci il oktyabrın 20-də isə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimi olub. Bu mərasim Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilib. Həmin gün Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkib, eləcə də əraziyə ceyranlar buraxıblar.

Sözügedən layihələrin həyata keçirildiyi əraziyə bitişik olan 31,4 hektar torpaq sahəsində Türkiyədən gətirilmiş ağac cinslərindən (Eldar şamı, qızılı şam, dağdağan, kipr akasiyası və sair) istifadə olunmaqla terras üsulu ilə 25,1 min ting əkilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında meşəbərpa tədbirləri çərçivəsində ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi planına uyğun olaraq payız əkini mövsümündə Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilan rayonlarında meşə fondu sahələrində əkin və səpin tədbirləri ilə bağlı işlər başlanıb.

Bəsitçay Dövlət Təbiət Qoruğunun 63 hektar (ümumilikdə, 85 hektar) torpaq sahəsi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Zəngilan şəhərinin giriş hissəsində 55 hektar, Ağdam şəhəri yaxınlığında 11 hektar sahədə yerli torpaq iqlim şəraitinə uyğun salınmış yaşıllığa aqrotexniki qaydalarda xidmət göstərilib. Bərpa-doldurma tədbirləri çərçivəsində Zəngilan rayonundakı yaşıllıq sahəsində 9,4 min, Ağdam rayonunun yaşıllıq sahəsində 1,4 min Eldar şamı tingi əkilib. Meşəbərpa işləri çərçivəsində isə Zəngilan rayonunda 42 hektar, Cəbrayıl rayonunda 15 hektar və Füzuli rayonunda 2 hektar ərazidə əkin və səpin işləri aparılıb. Cəbrayıl rayonunda 20 hektar ərazidə 6,2 min tingin əkilməsi ilə yeni yaşıllıq sahəsi salınıb.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərin ümumi və baş planlarının hazırlanması üçün Füzuli və Cəbrayıl rayonlarının ərazilərində, ümumilikdə, 301,1 hektar torpaq sahəsi ayrılıb. Bunun xeyli hissəsində artıq torpaq hazırlığı işləri görülüb. Qarabağın 2022-2026-cı illərini əhatə edən "Meşə fondunun bərpası" proqramı çərçivəsində, ümumilikdə, 30 min hektar meşə fondu sahəsinin bərpası üçün meşəbərpa, əkin və təbii bərpa işləri aparılması da qarşıya qoyulan məqsədlərdən biri oldu. Bu işdə təkcə dövlət orqanları yox, sakinlər də dövlətə dayaq oldu. Biz bir olub torpağımızı azad etdiyimiz kimi onu bərpa etmək üçün də yumruğa döndük. Hər əkdiyimiz ağac bir şəhid adı ilə bərabər torpağa köklərdi. Şəhidlərlə adaş oldu ağaclar, eldarlar, çinarlar...

Zəngilanda, Laçında, Şuşada öz ocağına qayıdan insanların hərəsi bir ağac əkdi bu yaralı torpağa. Bu ağaclar geri dönüşün işarəsi, torpağın əsl sahibi olduğumuzun sübutu oldu. Əbədi qayıdışın simvolu. Azad olunmuş torpağa əkilən ağaclarla yaşıd körpələr də göz açdı Zəngilanda, Şuşada. İllər bir-birini əvəz etdikcə Qarabağda boy atıb, torpağa kök salan çinarın kölgəsində yüzlərlə körpə böyüyüb Vətən keşikçisi olacaq. Şəhid qanı ilə sulanan torpağın hər qarışında bitən ağaclar çiçək açıb bar verdikcə onların kölgəsində ürəyi Vətən sevgisi ilə dolu olan igidlər yetişəcək.



**Ramiyə ƏKBƏROVA**

# Naxçıvanda 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumu keçirilib



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK), Türkiyə Palatalar və Birjalar Birliyinin, Qars Ticarət və Sənaye Palatasının, "Cahan Holding" və "Marsol Group"un dəstəyi ilə keçirilən foruma Azərbaycan və Türkiyənin müvafiq qurumlarının nümayəndələri, Qars, İğdır, Ərdahan, Ərzurum kimi bölgələrin valiliklərinin, bələdiyyə və ticarət palatalarının təmsilçiləri, eləcə də, ümumilikdə, 200-dən çox iş adamı qatılıb.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri qoyulub.

Forumun açılış tədbirində Ulu öndərlər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Forumu dövlət başçılarının müəyyən etdiyi kursun ardıcıl davamı kimi qiymətləndirən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov iki ölkənin siyasi birliyinin iqtisadi tərəfdaşlığı daha da gücləndirdiyini qeyd edib. Bildirib ki, Naxçıvan Türk dünyasının mühüm coğrafi mərkəzlərindən biri kimi bu gün həm də yeni iqtisadi əməkdaşlıq platformasına çevrilir. Bölgənin strateji əhəmiyyətinin artdığını vurğulayan səlahiyyətli nümayəndə qeyd edib ki, 2025-ci ilin yanvar-oktyabr ayları üzrə iqtisadi göstəricilər regionda inkişaf tempinin sürətləndiyini göstərir. Naxçıvanın son illərdə əldə etdiyi mühüm nailiyyətlərin əsasında Prezident cənab İlham Əliyevin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"dayanır. Sənəd Naxçıvanın innovasiyaya əsaslanan, rəqabətqabiliyyətli və müasir infrastruktur üzərində qurulan iqtisadi modelə keçidini təmin edir. Xüsusilə sənaye parkları, logistika imkanları, gömrük-vergi mexanizmləri və bərpa olunan enerji layihələri bu baxımdan prioritet istiqamətlərdir.

Ceyhun Cəlilov Zəngəzur dəhlizinin bölgənin gələcək iqtisadi mənzərəsini müəyyən edən əsas layihələrdən biri olduğunu diqqətə çatdıraraq qeyd edib ki, Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində reallaşacaq dəhliz Türkiyə ilə Azərbaycan arasında birbaşa quru əlaqəsi yaradacaq, regional ticarət və logistikanı sürətləndirəcək. Zəngəzur dəhlizi türk dövlətləri arasında inteqrasiyanı yeni mərhələyə daşıyacaq.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təş-





kilatları Milli Konfederasiyasının vitse-prezidenti, Azərbaycan-Türkiyə Ticarət və Sənaye Palatasının həmsədri Vüqar Abbasov, Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya, Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Zamin Əliyev çıxışlarında ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin və strateji tərəfdaşlığın inkişafı, iki ölkənin iş adamları arasında əməkdaşlıq, biznes və investisiya qoyuluşu üçün imkanlardan bəhs ediblər. Qeyd olunub ki, logistika, sərhədyanı ticarət, investisiya və KOB-ların dəstəklənməsi istiqamətində atılan qarşılıqlı addımlar bölgədə iqtisadi dinamikanın güclənməsinə və yeni tərəfdaşlıq imkanlarının açılmasına töhfə verir. Xüsusilə Naxçıvanın regional əməkdaşlıq baxımından yaratdığı imkanlar biznes dairələri üçün böyük perspektivlər açır.

Çıxışlarda, həmçinin ticarət, xüsusilə sərhədyanı ticarət, sənaye, turizm, nəqliyyat-logistika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq üçün geniş potensialın olduğunu, biznesin bu imkanlardan səmərəli istifadəsinin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcəyi vurğulanıb.

Forumda Türkiyənin Qars valisi Ziya Polat, İğdır valisi Ercan Turan, Ərdahan valisi Hayrettin Çiçek, Türkiyə Palatalar və Birjalar Birliyi İdarə Heyətinin üzvü, Ərzurum Ticarət və Sənaye Palatasının sədri Saim Özakalın, Qars Ticarət və Sənaye Palatasının sədri Kadir Bozan və Qars Bələdiyyəsinin sədri Ötüken Senger bölgədə iqtisadi əməkdaşlığın önəmini və sərhədyanı biznes imkanlarını vurğulayıb, təmsil etdikləri vilayətlərin Azərbaycan, xüsusilə də Naxçıvanla əməkdaşlıq üçün geniş imkanlara malik olduğunu və ortaq layihələrin regionun davamlı iqtisadi inkişafına töhfə verəcəyini qeyd ediblər.

Qeyd edək ki, forumun məqsədi Azərbaycan və Türkiyə, xüsusilə də hər iki ölkənin regionları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi, bu sahədə mövcud potensialın və biznes əməkdaşlığı üçün imkanların diqqətə çatdırılması, eləcə də Naxçıvan Muxtar Respublikasının biznes və investisiya imkanları barədə türk iş adamlarının məlumatlandırılması, Türkiyənin sərhədyanı bölgələri ilə ikitərəfli iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsidir. Forum çərçivəsində Naxçıvanın investisiya, ticarət və logistika imkanları barədə təqdimat nümayiş etdirilib, iki ölkənin iş adamları arasında "B2B" görüşlər keçirilib. Həmçinin türkiyəli iş adamları səfər çərçivəsində Naxçıvanda fəaliyyət göstərən bir sıra müəssisələrin fəaliyyəti ilə tanış olublar.

# Səlahiyyətli nümayəndə 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumunun iştirakçıları ilə görüşüb

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumunda iştirak edən Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan səlahiyyətli nümayəndə forumun qarşılıqlı ticarət və iqtisadi əlaqələrin daha dərindən inkişafı baxımından əhəmiyyətinə toxunub. Ceyhun Cəlilov bildirib ki, Prezident cənab İlham Əliyev Naxçıvana xüsusi diqqət ayırır. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" icra olunur. Növbəti ildən



başlayaraq Azad İqtisadi Zona elan edilən muxtar respublikada sahibkarlar 10 il müddətinə gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, eləcə də gömrük rüsumlarından azad ediləcək. Bu islahatlar yerli iş adamları ilə yanaşı, türkiyəli investorlar üçün də əlverişli biznes mühiti yaradacaq.

Xüsusilə ölkə başçısının səyləri nəticəsində bölgədə sülh prosesinin başlanması, Zəngəzur dəhlizinin reallaşması istiqamətində atılan addımlar Naxçıvanı mühüm logistika və turizm mərkəzinə çevirəcək. Səlahiyyətli nümayəndə türkiyəli iş adamlarını fəal işbirliyinə dəvət edib.

Qars valisi Ziya Polat, İğdır valisi Ercan Turan və Ərdahan valisi Hayrettin Çiçek səmimi qəbula görə təşəkkür edib, qarşılıqlı səfərlərin əlaqələrin daha dərin müstəvidə inkişafına şərait yaradacağına əminliklərini bildiriblər. Türkiyənin yaxın bölgələrinin Naxçıvanla ticarət əlaqələrinin ən üst səviyyəyə çıxmasında maraqlı olduqlarını bildirən qonaqlar Zəngəzur dəhlizinin reallaşmasının Naxçıvanla yanaşı, Türkiyənin İğdır, Qars, Ağrı və Ərdahan vilayətlərinin də inkişafında əsaslı rol oynayacağını diqqətə çatdırıb, qarşılıqlı işbirliklərinin fayda verəcəyini vurğulayıblar.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov rəhbərlik etdiyi qurumun Türkiyədə fəaliyyət göstərən müvafiq qurumlarla yaxşı əməkdaşlıq qurduğunu vurğulayıb, qarşılıqlı biznes missiyalarının reallaşdırılmasında bundan sonra dəstəklərini əsirgəməyəcəklərini qeyd edib.

Söhbət zamanı sərhədyanı ticarət və gömrük güzəştlərinin tətbiqi istiqamətlərində perspektiv imkanlar, ticarət disbalansının aradan qaldırılması, eləcə də qarşılıqlı maraqdoğuran digər məsələlər müzakirə edilib.

Görüşdə Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Zamin Əliyev və Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya iştirak ediblər.

# Akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

Dekabrın 5-də görkəmli alim və ictimai xadim, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyi münasibətilə keçirilən tədbirin "Naxçıvan səfəri" çərçivəsində böyük tərkibli nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Sevda Məmmədəliyeva və digər tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş



meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsini anıblar. Tədbir iştirakçıları abidə önündə xatirə fotosu çəkdiriblər.

Tədbir çərçivəsində Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində Akademik Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi istifadəyə verilib.

Mərkəzdə "Akademik Yusif Məmmədəliyev – 120" adlı sərgiyə baxış olub. Akademik və ensiklopedik nəşrlərin üstünlük təşkil etdiyi sərgidə alimin həyat və elmi fəaliyyətini özündə əks etdirən və məqalələrindən ibarət 4 dildə – Azərbaycan, rus, ingilis, macar dillərində kitablar, jurnallar, eyni zamanda qəzet materialları yer alır.



Mərkəzdə təşkil olunan "Akademik Yusif Məmmədəliyev – 120" adlı guşədə görkəmli alimin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, müxtəlif fəaliyyət illərində aldığı patentlər, şəhadətnamələr, rəylər və məktublar nümayiş etdirilib. Eyni zamanda mərkəzin laboratoriyalarında universitet əməkdaşları tərəfindən aparılmış tədqiqat nəticələrinin yer aldığı yüksək impakt faktorlu nəşrlər və

ardı 5-ci səhifədə



patentlərdən ibarət sərgi, tələbələrin əldə etdiyi uğurlar, sertifikatlar, eləcə də “Akademik Yusif Məmmədəliyev adına təqaüd” diplomu, akademik Yusif Məmmədəliyevə həsr olunmuş gənc alimlər arasında “Ən yaxşı məqalə” müsabiqəsinin qaliblərinin diplomları nümayiş olunur.

Tədbir iştirakçıları mərkəzdə fəaliyyət göstərən laboratoriyalarla tanış olub və həyata keçirilən təcrübələri izləyiblər. Kimya ixtisası üzrə təhsil alan tələbələrin hazırladığı kimyəvi maddələrin reaksiyasından düzəldilmiş “Yusif Məmmədəliyev – 120” yazısı maraqla qarşılanıb.

Universitetin Konservatoriya binasında davam etdirilən tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayaraq bildirib ki, görkəmli kimyaçı alim, dünyaşöhrətli akademik Yusif Məmmədəliyevin miras qoyduğu elmi ənənələr bugünkü tədqiqatçılar üçün də mühüm mayakdır. Bu mayak yüzlərlə elm adamının yoluna işıq saçıb. Ümummilli Lider Heydər Əliyevin yüksək dəyər verdiyi Yusif Məmmədəliyev irsi bu gün Naxçıvan Dövlət Universitetində də ətraflı tədqiq olunur, gənc nəslə aşılanır. Ali təhsil ocağında görkəmli akademikin adına təqaüd təsis olunub, Yusif Məmmədəliyev adına Tədris-Tədqiqat Mərkəzi istifadəyə verilib.

Elbrus İsayev görkəmli akademikin 120 illik yubileyi münasibətilə ölkəmizdə keçirilən konfransın iştirakçılarının Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib, hər kəsə təşəkkürünü bildirib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirin yalnız bir alimin xatirəsinə ehtiram deyil, həm də Azərbaycan elminin keçdiyi böyük inkişaf yoluna nəzər salmaq, Yusif Məmmədəliyevin elm tariximizə etdiyi töhfələri yeni nəslə daha dərindən çatdırmaq məqsədi daşıdığını qeyd edib. Səlahiyyətli nümayəndə bildirib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə elmi-tədqiqat infrastrukturunun modernləşdirilməsi, innovasiya ekosisteminin genişləndirilməsi, alimlərin və gənc tədqiqatçıların dəstəklənməsi istiqamətində ardıcıl və sistemli addımlar həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 5 iyul tarixdə dahi kimyaçı, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinin qeyd olunması haqqında imzaladığı Sərəncam da məhz elmə və təhsilə verilən bu yüksək qiymətin, milli elmi irsin qorunmasına və elmi mühitin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin bariz ifadəsidir.



Vurğulanıb ki, ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da elm və təhsilin inkişafı müasir elm-təhsil mühitinin qurulması əsas prioritetlərdən biri kimi müəyyən edilib, xüsusilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda elmin və təhsilin modernləşdirilməsi, tədqiqat mühitinin gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi, gənc mütəxəssis hazırlığının keyfiyyətinin artırılması strateji hədəflər kimi göstərilib. Həyata keçiriləcək layihələr ölkəmizin gələcək nəsil alimlərinin formalaşmasına, innovasiya mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə geniş perspektivlər açacaq.

“Yusif Məmmədəliyevin yaratdığı elmi məktəbin bu gün də canlı olduğunu, onun ideyalarının müasir çağırışlar fonunda aktuallığını qoruduğunun şahidiyik. Dövlətimiz belə şəxsiyyətlərin irsinə yüksək dəyər verir və bu elmi mirasın gələcək nəsillərə layiqincə çatdırılması üçün ardıcıl addımlar atır” fikirləri ilə çıxışını tamamlayan Ceyhun Cəlilov akademik Yusif Məmmədəliyevin əziz xatirəsini bir daha ehtiramla yad edib, tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib, uğurlar arzulayıb.




Universitetin heykəltəraş müəllimi Elxan Zeynalov tərəfindən hazırlanmış barelyef və Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, İncəsənət fakültəsinin dekanı Cavid İsmayılovun çəkdiyi “Akademik Yusif Məmmədəliyev” portreti akademikin qızı Sevda Məmmədəliyevaya təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib. Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında “Akademik Yusif Məmmədəliyevin ən çox dinlədiyi və sevdiyi mahnılar” adlı konsert proqramı təqdim edilib.



Əməkdar incəsənət xadimi, professor Sevda Məmmədəliyeva dövlətimizin elm adamlarının xidmətlərini hər zaman yüksək qiymətləndirdiyini bildirib, Ümummilli Lider Heydər Əliyevin akademik Yusif Məmmədəliyevin yubiley tədbirlərində iştirakını, ev-muzeyinin yaradılması ilə bağlı təşəbbüsünü minnətdarlıqla xatırlayıb, Prezident cənab İlham Əliyevin Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamının bu diqqət və qayğının davamı kimi yüksək dəyərə malik olduğunu qeyd edib, tədbirin təşkilində əməyi olanlara təşəkkür edib.

Yubiley tədbiri çərçivəsində görkəmli alimin doğulub böyüdüyü Ordubad şəhərinə də səfər edilib. Qonaqlar akademik Yusif Məmmədəliyevin Ordubad şəhərindəki abidəsinin bərpadan sonra açılışında iştirak edib, önünə tər güllər düzüblər.



Sonra Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ziyarət edilib. Qonaqlara dünyaşöhrətli kimyaçı alimin həyat və fəaliyyətini əks etdirən fotolar, şəxsi əşyalar, elmi yaradıcılıq nümunələri və digər dəyərli eksponatlar barədə məlumat verilib.

Əməkdar incəsənət xadimi, professor Sevda Məmmədəliyeva atası ilə bağlı xatirələrini bölüşüb.

## Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubiley konfransı keçirilib



Dekabrın 1-də Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyi münasibətilə “Ulu Öndər Heydər Əliyevin ideyalarının işığında Naxçıvan Dövlət Texniki Kollecinin inkişaf yolu” adlı konfrans təşkil olunub.

Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, dövlət və hökumət rəsmiləri, Ali Məclisin deputatları, ictimaiyyət nümayəndələri və kollecin kollektivi iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Naxçıvan Dövlət Texniki Kollecinin bir əsrlik inkişaf yoluna həsr olunmuş sərgiyə baxıblar.

Konfransın açılış mərasimində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin bütün regionları kimi Naxçıvanın da inkişafını daim diqqət mərkəzində saxlayır və muxtar respublikanın sosial-iqtisadi potensialının gücləndirilməsi üçün ardıcıl addımlar atılır. Dövlət başçısının Naxçıvana göstərdiyi qayğı, digər sahələrlə yanaşı, təhsil və insan kapitalının inkişafına yönəlmiş layihələrin daha sürətlə həyata keçirilməsinə şərait yaradır. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” insan kapitalının gücləndirilməsini əsas strateji hədəf kimi müəyyənləşdirir. Bu çərçivədə peşə təhsilinin rolunun artırılması, müasir ixtisasların tətbiqi və istehsalat mühitinə uyğunlaşdırılmış təlim bazasının yaradılması vacibdir. Naxçıvan Dövlət Texniki Kolleci də bu missiyanın önündə gedərək real ehtiyaclara uyğun, peşəkar mütəxəssislər hazırlayan aparıcı təhsil müəssisəsi olaraq fəaliyyətini daha da təkmilləşdirməlidir. Yüzillik təcrübəni yenilikçi yanaşmalarla sintez etmək kollecin gələcək nəsillər üçün də güvənilən kadr ocağı olaraq qalmasına şərait yaradır.

Samir Seyidəhmədli 2024-2025-ci tədris ilində kolleci bitirən 142 məzundan 60-nın ali məktəblərə qəbul olunmasını tədrisin keyfiyyətinin artmasının bariz nümunəsi kimi dəyərləndirərək vurğulayıb ki, kollec 100 illik təcrübəsinə söykənərək tədris prosesinə müasir texnologiyaların tətbiqi, innovativ yanaşmaların təşviqi və yaradıcı təlim mühitinin formalaşdırılması istiqamətində də mühüm addımlar atmalıdır.

Səlahiyyətli nümayəndənin müavini kollecin yüzillik ənənələrinin davamçılarına – tələbələrə tövsiyələrini verib, təhsil ocağının 100 illik yubileyi münasibətilə bütün kollektivi təbrik edib, hər kəsə uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev kollecin 100 illiyinin Naxçıvanda təhsil tarixinin önəmli bir səhifəsi olduğunu bildirib. Yeni dövrün tələblərindən, elmi-texnoloji yanaşmalardan bəhs edən rektor universitet-kollec əməkdaşlığının uğurlarını,

ardı 6-cı səhifədə

eləcə də fəaliyyətin təhsil sahəsində həyata keçirilən inkişaf strategiyalarına uyğun davam etdirildiyini qeyd edib, müasir dövrün tələblərinə əsaslanan islahatların aparıldığını, Texniki Kollecin fəaliyyətinin daha da genişləndirildiyini diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Arzu Abdullayev kollecdə yaradılan yeni tədris imkanlarından və təhsil ocağının əsrlik yubileyinin ictimai əhəmiyyətindən danışıb. Naxçıvan Dövlət Texniki Kollecinin ötən yüz ildə şərəfli bir yol keçdiyini bildirən Ali Məclis sədrinin müavini vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövründən başlayaraq təhsil ocağı davamlı inkişaf yoluna qədəm qoyub. Kollecin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi isə potensialdan daha səmərəli istifadəyə imkan yaradıb. Arzu Abdullayev Ali Məclis adından Naxçıvan Dövlət Texniki Kollecinin kollektivini təbrik edib, uğurların davamını diləyib.





Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov və kollecin fəxri məzunu İsmayıl Ağalarov kollecin uğurlarından danışıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Sərəncamına əsasən muxtar respublikada orta ixtisas təhsilinin inkişafındakı səmərəli fəaliyyətlərinə görə təltif edilən Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanova və kollecin müəllimi Səadət Qasımovaya “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”, bir qrup əməkdaşa isə “Rəşadətli əməyə görə” nişanları təqdim olunub.

Həmçinin kollecə muxtar respublikada orta ixtisas təhsilinin inkişafındakı səmərəli fəaliyyətlərinə görə və 100 illik yubiley münasibətilə Ali Məclisin Fəxri Fərmanı təqdim edilib.

Tədbirdə digər bir qrup əməkdaşa universitetin Fəxri Fərman və təşəkkürnamələri, eləcə də İsmayıl Ağalarova kollecin fəxri məzunu diplomu təqdim edilib.

AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev kollecə hədiyyə təqdim edib.

## Ali Məclisin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib



Dekabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyinə “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin (üçüncü oxunuş) müzakirəsi və Samiq Asəf oğlu Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi məsələsi daxil edilib.

Gündəlikdə duran birinci məsələnin müzakirəsi zamanı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, qanun layihəsi 7 noyabr 2025-ci il tarixdə Ali Məclisin iclasında ikinci oxunuşda müzakirə edilib. Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə daxil edilib.

Qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verdikdən sonra “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunub.

İclasın gündəliyində duran ikinci məsələnin müzakirəsi zamanı Samiq Asəf oğlu Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi ilə əlaqədar təqdimat və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsi diqqətə çatdırılıb.

Sonra qərar səsə qoyularaq qəbul olunub.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini və 25-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”nin 51.5-ci maddəsində “10” rəqəmləri “5” rəqəmi ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 1 dekabr 2025-ci il*

## S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 1 dekabr 2025-ci il*

## R.Q.Nabatovun Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Rəşadət Qurban oğlu Nabatov Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Rəşadət Qurban oğlu Nabatova həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 1 dekabr 2025-ci il*

## “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Qanun layihəsi Ali Məclis komitələrinin birgə iclasında müzakirə edilib

Dekabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən aparıcı komitə təyin olunan İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyevin sədrliyi ilə “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi məqsədilə Ali Məclis komitələrinin birgə iclası keçirilib.

Komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini Ali Məclisə təqdim edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin gəlirlərinin 483 milyon 178 min manat, xərclərinin 483 milyon 178 min manat məbləğində təsdiq edilməsi nəzərdə tutulub.



Emin Şıxəliyev qeyd edib ki, ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin Dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, iqtisadiyyatın sahələrinin və regionların kompleks inkişafının təmin edilməsinə yönəldilib. Məhz bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” təsdiq olunub. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib.

Diqqətə çatdırılıb ki, 2026-cı il üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin layihəsinə nəzər saldıqda gəlir mənbələri üzrə 2025-ci ilə nisbətən 64 milyon 120 min manat və ya 30,9 faiz artım müşahidə olunur. Həmçinin 2026-cı il üzrə büdcə gəlirləri ilk dəfə olaraq ayrılmış dotasiya məbləğini üstələyib ki, bu da artıq iqtisadi inkişafın yeni mərhələdə formalaşmasından xəbər verir.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov və iqtisadiyyat naziri Kazım Hüseynəliyev qanun layihəsi barədə məlumat veriblər.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra İqtisadi siyasət komitəsinin rəyi oxunub, qanun layihəsi yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasının müzakirəsinə təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda yeni təyin olunmuş səhiyyə nazirinin müavini kollektivə təqdim edilib





Dekabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsinə təyin edilmiş, nazir vəzifələrini müvəqqəti icra edən Rəşadət Nabatov kollektivə təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin vəzifəsindən azad edilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarını və Rəşadət Qurban oğlu Nabatovun Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini vəzifəsinə təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamını kollektivin diqqətinə çatdırıb. Qeyd edib ki, səhiyyə naziri vəzifələrinin müvəqqəti icrası Rəşadət Nabatova həvalə edilib.

Elşad Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan uğurlu sosial-iqtisadi islahatlardan, xüsusilə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində həyata keçirilən geniş miqyaslı tədbirlərdən bəhs edib. Vurğulayıb ki, səhiyyənin müasir tələblər əsasında inkişafı Dövlət Proqramında əsas prioritetlərdən biri kimi müəyyən edilsə də, səhiyyə sektorunda nəzərdə tutulan vəzifələrin icrasında gecikmələr və qeyri-dəqiqliklər müşahidə olunub.

Mövcud imkanlardan daha effektiv yararlanaraq qarşıya qoyulan tapşırıqlar operativ və düzgün həyata keçirilməli, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti müasir tələblərə uyğunlaşdırılmalıdır. Baş nazirin birinci müavini bu işlərin icrasında kollektivə uğurlar arzulayıb.

Rəşadət Nabatov göstərilən yüksək etimada görə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin baş həkimi Rəsmiyyə Həşimova kollektiv adından çıxış edərək səhiyyənin davamlı inkişafı istiqamətində aparılan islahatlara görə dövlətimizə minnətdarlıq edib.

## Naxçıvan və Ordubad mənim ürəyimdə elə doğmalıq hissi yaradır ki, bunu sözlə ifadə etmək çox çətindir



“Ulu Öndər Heydər Əliyev tərəfindən Yusif Məmmədəliyevin elmi irsi hər zaman yüksək qiymətləndirilib. Bu gün də Prezident İlham Əliyev tərəfindən akademikin xatirəsinə göstərilən həssas münasibət bizi son dərəcə qürurlandırır”.

Bu fikirləri akademik Yusif Məmmədəliyevin qızı Sevda Məmmədəliyeva mətbuata açıqlamasında deyib.

“Qədim diyar Naxçıvan yazıçıları, alimləri, xüsusilə də dövlət xadimləri ilə şöhrət qazanmış bir torpaqdır. Bu torpaqla hər zaman fəxr edirəm. Bakıda yaşasam da, Naxçıvan və Ordubad mənim ürəyimdə elə doğmalıq hissi yaradır ki, bunu sözlə ifadə etmək çox çətindir. Orada olarkən özümü tam rahat hiss edirəm”, – deyə Sevda Məmmədəliyeva vurğulayıb.

Sevda Məmmədəliyeva Naxçıvanda yaradılan təhsil və mədəniyyət mühiti barədə də təəssüratlarını bölüşüb: “İstərdim ki, hər şey gözəl, atama layiq olsun. Çünki atamın gözəl zövqü var idi. Bu zövqə uyğun olaraq həmin tədbir də möhtəşəm şəkildə baş tutdu. Buna görə də təşkilatçılara dərin minnətdarlığımı bildirirəm. Naxçıvan Dövlət Universiteti ilə tanış olan zaman şahid oldum ki, Bakıda belə universitetlər yoxdur. Bu cür laboratoriyalar, bu səviyyədə orkestr Avropada belə birinci yeri tuta bilər. Siz burada yaşadığınız üçün, bu mühiti qoruyub saxladığınız üçün qürur duymalısınız. Mən inanıram ki, Naxçıvan torpağında gözəl alimlər yetişəcək, çünki siz bunun üçün bütün imkanları yaradırsınız”.

# Dünyaşöhrətli alim, görkəmli elm təşkilatçısı

*Yusif Məmmədəliyev – 120*





*Yusif Məmmədəliyev (soldan ikinci) atası Hacı Heydər, anası Gülsüm xanım və digər ailə üzvləri ilə birlikdə. Ordubad, 1918-ci il*

Azərbaycan xalqının tarixinə böyük alim, vətənpərvər ziyalı, bacarıqlı elm və təhsil təşkilatçısı, görkəmli ictimai-siyasi xadim kimi daxil olan Yusif Məmmədəliyevin 120 illik yubiley tədbirləri ölkəmizdə yüksək səviyyədə qeyd edilir. “Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci il iyulun 5-də xüsusi Sərəncam imzalamışdır. Bu Sərəncam xalqımızın böyük oğlunun fəaliyyətinə, irsinə, ideyalarına bir daha üz tutmaq, onun irsini ətraflı öyrənmək və təbliğ etmək vəzifəsini qarşıya qoyur. Dünyaşöhrətli alimin yubileyi təkcə onun vətənində deyil, ölkəmizdən kənarda da qeyd edilir. Bu barədə qərarı isə onun dünya elminə verdiyi müstəsna töhfələri nəzərə alan YUNESKO vermişdir. YUNESKO 2005-ci ili “Yusif Məmmədəliyev ili” elan etmişdir. Təkcə elə bu faktın özü Yusif Məmmədəliyevin dünyada tanınan görkəmli, şöhrətli alim və şəxsiyyət olduğunu bir daha sübut edir.

Yusif Məmmədəliyev keçən əsrin əvvəllərində – 1905-ci ilin dekabrın 31-də qədim Azərbaycan torpağı olan Naxçıvan mahalının Ordubad şəhərində Ordubad camaatının “küräçi Heydər” adlandırdığı Hacı Heydərin ailəsində dünyaya göz açmış, bu halal zəhmətlə dolanan böyük ailədə böyümüş, boya-başa çatmışdır.

Yusif Heydər oğlu uşaqlıq illərini Ordubadda yaşamış, ilk təhsilini evdə və yeni tipli Ordubad məktəbində almışdır. Ona ev şəraitində dərs deyən müəllimlərdən biri sonralar geniş dünyagörüşlü qadın kimi tanınan Gülsüm xanım Axtyamova – Ordubadskaya olmuşdur. Həkim əri ilə birlikdə Ordubada işləməyə gəlmiş, milliyyətcə tatar qızı olan G.Axtyamovanın Yusif Məmmədəliyevin rus dilini yaxşı öyrənməsində və onun müəllimlik peşəsinə həvəs göstərməsində xüsusi əməyi olmuşdur. Təsadüfi deyildir ki, Yusif Məmmədəliyev ömrünün axırına qədər G.Axtyamova – Ordubadskayanı böyük hörmətlə xatırlayırdı.

1917-ci ildə Ordubadda Mir Məmməd Səməndərov və Mir Mehdi Seyidov tərəfindən yeni tipli məktəb yaradılmışdı. Yusif Məmmədəliyev iki ilə yaxın bu məktəbdə təhsil almışdır.

1918-ci ilin iyul ayında erməni daşnaklarının Ordubada basqınından yaxa qurtarmaq üçün Məmmədəliyevlər ailəsi Təbrizə köçmüşdür. Həmin vaxtlar Cənubi Azərbaycanın qəhrəman oğlu Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında demokratik inqilab olmuşdur. Baş verən hadisələr Yusif Məmmədəliyevin gələcək həyatına böyük təsir göstərmişdir. O, Təbrizdə yaşadığı müddətdə gimnaziya tipli yeddiillik Rüşdiyyə məktəbində təhsilini davam etdirmişdir. 1920-ci ildə Ordubada qayıtmış və 1923-cü ilə qədər müəllimlik etmişdi.

Ali təhsil almaq arzusu gənc Yusifi Bakıya gətirib çıxarır. 1923-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun hazırlıq fakültəsində oxumuş və sonra 1924-1926-cı illərdə institutun Təbiət elmləri fakültəsində təhsil almışdır. 1926-cı ildə təyinatla Gəncə şəhərinə göndərilmiş və orada Pedaqoji Texnikumda, 1928-29-cu illərdə isə İrəvan Pedaqoji İnstitutunda kimya müəllimi işləmişdir.

Elmə həddsiz marağı sayəsində Yusif Məmmədəliyev 1929-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakültəsinin ikinci kursuna daxil olur. Universitetdəki təhsil illəri, akademik N.D.Zelinski və A.A.Balandinlə birlikdə işləməsi, onların tələbəsi olması gənc Yusifin həyatında, onun istedadlı tədqiqatçı kimi yetişməsində böyük rol oynayır. Yusif Məmmədəliyev N.D.Zelinskinin laboratoriyasında iki il gərgin işləməklə “Etilenin katalitik hidrogenləşməsinin kinetikası” mövzusunda tədqiqat işləri aparmışdır. 1931-ci ildə Moskva Dövlət Universitetini bitirdikdən sonra bir il Moskvanın qapalı zavodlarından birində mühəndis işləmişdir. Akademik N.D.Zelinski yazdığı zəmanətdə Yusif Məmmədəliyevin qiymətli elmi işçi və ali məktəb nümayəndəsi kimi yetişəcəyini göstərmişdir.

Moskvadan Vətənə döndükdən sonra – 1932-ci ilin sentyabr ayında Azərbaycan KP MK-nın məktubu ilə Gəncəyə göndərilir və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Üzvi kimya kafedrasına müdir təyin edilir.

Ancaq tələbəlik illərində Zelinski, Balandin, Nametkin tərəfindən ona verilmiş ideyaların –

ardı 8-ci səhifədə

# Prezident İlham ƏLİYEV:

*“Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır. Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alimin qiymətli sənaye məhsullarının alınması üçün böyük tətbiqi əhəmiyyətə malik texnoloji proseslərin işlənib hazırlanmasında müstəsna xidmətləri vardır. Neft-kimya elmində mühüm hadisəyə çevrilən yüksək oktanlı aviasiya yanacaqları istehsalının yeni üsulunu kəşf etməsi Yusif Məmmədəliyevə şöhrət qazandırmışdır. Respublikada bir sıra elmi müəssisə və qurumların təşkili onun adı ilə bağlıdır. Geniş spektrli fundamental tədqiqat işlərini səmərəli pedaqoji fəaliyyətlə paralel suratdə davam etdirən Yusif Məmmədəliyevin formalaşdırdığı Azərbaycan neft-kimya məktəbi ölkənin hüdudlarından çox-çox uzaqlarda tanınmışdır.”*



***Yusif Məmmədəliyev akademiklərlə birlikdə.***
***Soldan-sağa: A.Topçiyev – SSRİ Elmlər Akademiyasının vitse-prezidenti, Y. Məmmədəliyev, Q.Əliyev, Ş.Əzizbəyov, V.Volobuyev, Ş.Məmmədov. 1958-ci il***

neft və qaz məhsullarının kimyəvi emalı proseslərinin həyata keçirilməsi arzusu onu kafedra müdirliyindən çıxıb Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutunda laborant vəzifəsində işləməyə sövq edir.

Yusif Məmmədəliyev bu institutda laborantlıqdan akademikliyə qədər şərəfli yol keçmişdir. O, 1933-1945-ci illərdə kiçik və böyük elmi işçi vəzifələrini tutmuş, 1945-ci ildə isə laboratoriya müdiri vəzifəsinə seçilmişdir. Bu institutda elmi-tədqiqat işləri aparan Yusif Məmmədəliyev özünün gözəl hazırlığı, erudisiyası, qətiyyəti və inadkarlığı ilə yaşıdlarından dərhal fərqlənir. O, çox tezliklə ümidverici alim adını qazanır. Onun hələ ilk elmi araşdırmaları gözəl proqnozlaşdırma istedadı ilə ətrafdakıları heyrətə gətirir.

O, hələ 30-cu illərin əvvəllərində zəngin xammal ehtiyatı – təbii qazın geniş sənayedə tətbiqi problemini ilk dəfə irəli sürür və həll edir. Yusif Məmmədəliyev “Azərbaycanın təbii qazları və onların kimyəvi emalı” (1936) adlı ilk monoqrafiyasında yazırdı: “İndiyədək yanacaq kimi işlətdiyimiz qazı indən belə qiymətli birləşməyə çevirəcəyik”.

Yusif Məmmədəliyev tərəfindən təbii qazların halogenləşməsi reaksiyaları daha sistemli şəkildə aparılmışdır. O, 1939-cu ildə ilk dəfə dünya təcrübəsində yarımsənaye qurğusunda metandan stasionar katalizator təbəqəsində dördxlorlu metanı istehsal etmişdir. 1938-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurası Yusif Məmmədəliyevin təbii və süni neft qazlarının kimyəvi emalı sahəsində apardığı sistemli tədqiqatları nəzərə alaraq ona müdafiə etmədən kimya elmləri namizədi alimlik dərəcəsi vermişdir.

Yusif Məmmədəliyevin neft qazlarının və onların ayrı-ayrı komponentlərinin halogenləşməsi və onların əsasında qiymətli maddələrin alınması sahəsindəki orijinal tədqiqatları neft kimyasını yeni tövsiyələrlə zənginləşdirmişdir. O, halogenləşmə sahəsində dünyanın ən nüfuzlu alimi idi.

Yusif Məmmədəliyevin ikinci müstəqil elmi istiqaməti karbohidrogenlərin katalitik alkilləşdirilməsidir. O bu sahədə böyük əhəmiyyəti olan çox geniş tədqiqat işləri aparmış və şöhrət qazanmış, elmi məktəb yaratmışdır. Alim apardığı tədqiqatları ümumiləşdirərək 1942-ci ildə “Aromatik karbohidrogenlərin alkilləşdirilməsi və dialkilləşdirilməsi ilə toluolun sintezi” mövzusunda



***Yusif Məmmədəliyev müəllimi akademik Nikolay Zelinski ilə birlikdə. 1951-ci il***

doktorluq dissertasiyası müdafiə etmişdir. 1941-1945-ci illər müharibəsinin başlanğıcında müdafiənin nəhəng tələbatlarını nəzərə alaraq alim ilk dəfə partlayıcı maddələrin əsas komponenti olan toluol hasilatı prosesini müəyyənləşdirib, onu istehsalatda tətbiq edir. Nəticədə, Yusif Məmmədəliyev tərəfindən təklif olunmuş metodun tətbiqi müharibənin ağır illərində toluol istehsalını ən azı iki dəfə artırmağa imkan verdi.

Yusif Məmmədəliyev ilk dəfə olaraq alkilləşmə üçün sulfat turşusundan katalizator kimi istifadə etmişdir. Bu proses əsasında sənaye miqyasında zavod işə salınaraq yüksək oktan ədədli izopropilbenzol istehsal edilmiş və SSRİ Müdafiə Nazirliyini yüksəkkeyfiyyətli aviabenzin ilə təmin edən komponent əldə edilmişdir. Yusif Məmmədəliyevin bu tədqiqatı hərbi nailiyyətlərdən başqa, neft kimyasında “alkilləşdirmə reaksiyası” adlanan yeni bir istiqamətin əsasını təşkil etmişdi. Xarici elmi ictimaiyyət, ilk növbədə, Amerika alimləri həmin nəticələri hərarətlə qarşıladılar. Bu kəşflərin müəllifinə o zaman elm dünyasında “alkilləşdirmə kralı” adı vermişdilər.

Yusif Məmmədəliyevin bu sahədə apardığı tədqiqatlar dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1944-cü ildə böyük alim “Lenin ordeni”, bir il sonra – 1945-ci ildə isə “Stalin mükafatı” (Dövlət mükafatı) ilə mükafatlandırılmışdır.

Nadir bir keyfiyyət sahibi – nəzəriyyəçi və təcrübəçi istedadlarını özündə birləşdirən Yusif Məmmədəliyev, polimerlərin nəinki kimyanın, bütün bəşəriyyətin gələcəyi üçün əhəmiyyətini əvvəlcədən görmüşdür. Dünyada birincilər sırasında o, polimerlər nəzəriyyəsinin genişlənməsinə qoşulur və Azərbaycanda polimerlər kimyasının əsasını qoyur.

Yusif Məmmədəliyev bütün elmi fəaliyyəti dövründə elmi-tədqiqat işlərinə xüsusi diqqət yetirirdi. O, müharibədən sonrakı illərdə də Bakı neftindən daha yüksəkkeyfiyyətli benzinlərin alınması problemi üzərində gərgin işləmiş, benzin fraksiyasının katalitik aromatikləşdirilməsi prosesini ətraflı öyrənmişdir. Onun plastik kütlə istehsalı, silisiumlu üzvi birləşmələr və sair sahəsində də dəyərli elmi işləri və nəticələri vardır. O, Naftalan neftinin böyük müalicəvi əhəmiyyətini uzaqgörənliklə dərk edərək onu tədqiq və müalicə üçün təklif etmişdir.

Yusif Məmmədəliyev elmi tədqiqatları ilə şöhrət qazandığı kimi, ölkəmizdə elmin təşkilatçısı olaraq da böyük nüfuz sahibi idi. Elmdə qazandığı böyük uğurlara görə Yusif Məmmədəliyev 1945-ci ildə yeni yaradılmış Azərbaycan EA-nın ilk kimyaçı akademiki seçilmişdir. 1945-ci ildə Bakıya gələn SSRİ Elmlər Akademiyasının prezidenti Vladimir Komarov Azərbaycanda Akademiyanın yaradılması ilə əlaqədar demişdir: “...bircə Məmmədəliyev kimi alimə görə Azərbaycanda Elmlər Akademiyası yaratmaq zəruridir”.

Akademik Yusif Məmmədəliyev 1945-ci ildə Azərbaycan EA nəzdində Neft İnstitutu yaratmış və onun ilk direktoru işləmişdir. O, iki dəfə – 1947-1951 və 1958-1961-ci illər – müqəddəs elm məbədinə – Elmlər Akademiyasına prezident vəzifəsinə seçilmiş və rəhbərlik etmişdir. 1958-ci ildə isə o, keçmiş SSRİ EA-na müxbir üzv seçilmişdir. Alim 1951-1954-cü illərdə Azərbaycan EA fizika, kimya elmləri və neft üzrə akademik katib, 1954-1958-ci illərdə Bakı Dövlət Universitetinin rektoru işləmişdir. Akademik Yusif Məmmədəliyevin tükənməz enerjisi və təşkilatçılıq qabiliyyəti, dövlət xadiminə xas olan təfəkkürü bu vəzifələrdə işləyərkən özünü daha geniş göstərdi. O, Azərbaycan elminin sükanı arxasında neft-kimya sahəsi ilə yanaşı, elmimizin və mədəniyyətimizin bütün sahələrinin inkişaf etdirilməsinə çalışırdı. Məhz bu böyük alimin, elm təşkilatçısının Elmlər Akademiyasının rəhbəri olduğu vaxtlarda ədəbiyyatşünaslıq, genetika, astrofizika, şərqşünaslıq və b. elm sahələri yüksəliş mərhələsinə qədəm qoymuş, yeni elmi-tədqiqat müəssisələri yaradılmış, akademiyanın maddi-texniki bazası möhkəmləndirilmiş, yeni ixtisaslı kadrların hazırlığına ciddi fikir verilmişdir. O, başçılıq etdiyi akademiyada təmsil olunan bütün elm sahələrinin inkişafı, yüksəkixtisaslı kadrların hazırlığı, elmin xalq təsərrüfatının tələbatına uyğunlaşması üçün çox iş görmüşdür.

Akademik Yusif Məmmədəliyevin prezidentliyi dövründə Elmlər Akademiyasında 10-dan artıq yeni institut və mərkəzlər: Genetika və Seleksiya İnstitutu, Neft-Kimya Prosesləri İnstitutu, Şamaxı Astrofizika Rəsədxanası, Su Problemləri İnstitutu, Dərin Neft və Qaz Yataqları İnstitutu, Klinik və Eksperimental Təbabət İnstitutu, Şərqşünaslıq İnstitutu, İqtisadiyyat İnstitutu, Hesablama Mərkəzi və başqaları yaradıldı. O, Sumqayıt kimya kompleksinin və oradakı bir sıra elmi mərkəzlərin yaradılmasının təşəbbüskarı olmuşdur.

Akademik Yusif Məmmədəliyev keçmiş nəsillərimizin qoyduqları maddi, mənəvi, elmi irsi son dərəcə yüksək qiymətləndirirdi. Mütəxəssislərin rayonlara, kənd və şəhərlərə gedərək əlyazmaları toplamalarını yorulmadan tələb edirdi. O, vaxtilə Ədəbiyyat və Dilçilik İnstitutu nəzdində yerləşən və heç də böyük olmayan Əlyazmalar şöbəsinin akademiyanın müstəqil Əlyazmalar Fonduna çevrilməsi naminə çox iş görmüşdür. İftixarla deyə bilərik ki, toplanmış həmin əlyazmaların sayəsində bu fond instituta çevrildi və bu gün Əlyazmalar İnstitutu nadir əlyazmalar xəzinəsi kimi tanınır. Ölkəmizdə fundamental elmlərdən tutmuş xalq təsərrüfatı məsələlərinin və müdafiə potensialının həllinədək hər şeyin kosmosla bağlı olduğunu başa düşən alim Azərbaycanın bu işlərdən kənarda qalmaması üçün əlindən gələni əsirgəmirdi. Akademik Yusif Məmmədəliyev Nəsrəddin Tusinin vətənini rəsədxanasız təsəvvür etmirdi. Bu elm təşkilatçısının ciddi səyi nəticəsində Şamaxı Astrofizika Müşahidə Stansiyası yaradıldı və o, 1960-cı ildə Astrofizika Rəsədxanasına çevrildi və ikimetrlik güzgülü teleskopla təmin edildi.

Akademik Yusif Məmmədəliyev Elmlər Akademiyasına rəhbərlik etdiyi illərdə bacarıqlı təşkilatçı kimi yeni laboratoriyalar, şöbələr, bölmələr açdırmış və perspektivli elmi sahələrin inkişafı üçün gözəl imkanlar yaratmışdır. Bu illərdə Azərbaycan EA 5 bölmədən, 17 institutdan, 2 sektordan və 3 muzeydən ibarət olmuşdur. O, akademiya üçün kompleks binaların tikintisi məqsədilə SSRİ Xalq Komissarları Şurasının xüsusi sərəncamı ilə xeyli miqdarda maliyyə vəsaiti ayrılmasına nail olur. Yusif Məmmədəliyev hələ 1947-ci ildə Azərbaycan Elmlər Akademiyasında prezident işlədiyi vaxt akademiyada çalışanların sayını 1000 nəfərdən 5000 nəfərə çatdırmışdı. Yeni elmi kadrların hazırlanmasına xüsusi əhəmiyyət verirdi. Təkcə 1959-cu ildə polimer kimyasını gələcəkdə inkişaf etdirmək üçün 30-a qədər gənc aspirantı Moskva, Sankt-Peterburq və digər elmi mərkəzlərə ixtisaslaşmaq üçün göndərmişdir. Akademik Yusif Məmmədəliyev 10-a qədər monoqrafiyanın, 200-dən artıq sanballı elmi əsərin müəllifi olmaqla yanaşı, 40-a qədər elmlər doktoru və elmlər namizədi hazırlamışdır.

Cəmi 55 il mənalı və ibrətamiz ömür yaşamış akademik Yusif Məmmədəliyevin elmi, pedaqoji, ictimai fəaliyyəti çox genişdir. Onun Azərbaycanda müxtəlif elm sahələrinin, sənayenin, əlxüsus, kimya sənayesinin müxtəlif sahələrinin inkişafında misilsiz elmi-təşkilatçılıq xidmətləri olmuşdur. O, neft kimyasının, neft emalının və üzvi sintezin banisidir, həmçinin polimerlər kimyasının yaradıcısıdır. Ölkəmizdə kimya elminin yüksələn xətt üzrə inkişaf etməsində, gənc nəsildə kimya elminə böyük marağın oyanmasında Yusif Məmmədəliyevin müstəsna xidmətləri olmuşdur. Böyük iftixar hissi ilə bildiririk ki, müasir kimya və neft-kimya elmi sahəsində dünyada qazanılan elmi-texniki nailiyyətlərdə akademik Yusif Məmmədəliyevin layiqli əməyi vardır. Dünyanın elm korifeyləri sırasında Azərbaycan alimi Yusif Məmmədəliyevin adı şərəflə çəkilir. Təsadüfi deyildir ki, bu böyük alim, bacarıqlı elm təşkilatçısının fəaliyyəti həmişə təqdir olunur və minnətdarlıqla yad edilir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Yusif Məmmədəliyevin fəaliyyətini qiymətləndirərək demişdir: ***“...O öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən, Azərbaycan elmini inkişaf etdirmək sahələrindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur”.***

Elmin əvəzsiz təşkilatçısı olan akademik Yusif Məmmədəliyevin Azərbaycan elminin və 80 illik tarixi bu yaxınlarda respublika səviyyəsində qeyd edilən Milli Elmlər Akademiyasının inkişafı üçün müəyyən etdiyi böyük inkişaf məqsədləri onun ardıcılları və görkəmli alimlərimiz tərəfindən uğurla davam etdirilir. Elmimizin Yusif Məmmədəliyev ruhu həmişə yaşayır, onun böyük yaradıcı gücü gələcək uğurlarımız üçün də əvəzsiz nümunədir.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Akademik Kamal Abdullanın 75 illik yubileyi qeyd olunub



Naxçıvan Dövlət Universitetində filologiya elmləri doktoru, professor Kamal Abdullayevin anadan olmasının 75 illiyinə həsr olunmuş yubiley konfransı keçirilib. Görkəmli alim, Azərbaycan Respublikasının Xalq yazıçısı, ədəbiyyatşünas və ictimai xadimin Azərbaycan elminə və təhsilinə verdiyi töhfələrin geniş işıqlandırıldığı tədbir elmi-ədəbi ictimaiyyət tərəfindən mühüm hadisə kimi dəyərləndirilib.

Konfransı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev yubilyarı təbrik edərək onun elmi fəaliyyəti, dilçilik sahəsində apardığı tədqiqatlar və ədəbiyyatşünaslığa verdiyi əhəmiyyətli töhfələr haqqında danışıb. Qeyd olunub ki, Kamal Abdulla yalnız görkəmli yazıçı və dövlət xadimi kimi deyil, eyni zamanda ali təhsil sahəsində uzun illərdir, yorulmadan çalışan təhsil təşkilatçısı kimi də tanınır. Rektor professor Kamal Abdullaya Naxçıvan Dövlət Universitetinin Fəxri Fərmanını və rəsm əsəri təqdim edib.

Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarovun moderatorluğu ilə davam edən tədbirdə yerli və xarici universitetlərin alimləri məruzələrlə çıxış ediblər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Kamal Abdullanın dilçilik sahəsində qoyduğu elmi irsdən bəhs edərək onu yubiley münasibətilə təbrik edib.

Azərbaycan Dillər Universitetinin professoru, AMEA-nın həqiqi üzvü Muxtar İmanov “Kamal Abdullanın dilçilik və ədəbiyyat sahəsində tədqiqatları” mövzusunda məruzə ilə çıxış edərək alimin elmi irsinin milli filologiyanın inkişafındakı rolunu vurğulayıb.

Rumıniyanın Yaşi Universitetinin professoru Ludmila Bejenaru isə “Kamal Abdulla dünya ədəbiyyatında” mövzusunda çıxışında alimin beynəlxalq elmi-ədəbi mühitdə tanınmasından və onun elmi fəaliyyətinə həsr etdiyi müəllifi olduğu kitabdan danışıb.



Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar yazıçının şeirlərindən söz açaraq onların poetik dəyərini vurğulayıb, yubilyara özünün müəllifi olduğu poemasını hədiyyə edib.

Digər məruzəçilər Akşin Bağırov “Kamal Abdullanın Azərbaycan təhsilindəki rolu”, dosent İman Cəfərov “Kamal Abdullanın yazıçı, alim, ictimai xadim kimi fəaliyyət istiqamətləri”, dosent Əli Həşimov isə “Kamal Abdulla yaradıcılığında Dədə Qorqud araşdırmaları” mövzularında çıxış ediblər.

Tədbirin sonunda dosent Gülxarə Əhmədova “Kamal Abdulla dramaturgiyası və teatr dili” mövzusunda məlumat verib və universitetin Teatr və mədəniyyətşünaslıq kafedrasının müəllimi, rejissor Nurbəniz Niftəliyevanın Aktyor sənəti ixtisası üzrə 2-ci kurs tələbələri ilə hazırladığı yazıçı-dramaturq Kamal Abdullanın “Hərdən mənə mələk də deyirlər” eyniadlı tamaşası Tələbə Teatr Studiyasının səhnəsində nümayiş olunub.

Göstərilən diqqət və ehtirama görə minnətdarlığını bildirən akademik tədbiri özünün “Soldu nar çiçəkləri” şeiri ilə yekunlaşdırıb. Daha sonra iştirakçılar tərəfindən ictimai xadimə gül dəstələri və hədiyyələr təqdim edilib, xatirə şəkli çəkdirilib.

# “Sərhədsiz dünyam” adlı inklüziv sərginin açılış tədbiri keçirilib



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 3 dekabr – Beynəlxalq Əlilliyi olan Şəxslər Günü münasibətilə “Sərhədsiz dünyam” adlı inklüziv sərginin açılışı olub. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı və Rəssamlar Birliyinin dəstəyi ilə reallaşan sərginin məqsədi müvafiq kateqoriyadan olan şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək göstərmək, onların yaradıcılıq potensialını nümayiş etdirmək və bərabər imkanların təşviqinə diqqət çəkməkdən ibarətdir.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Sərginin açılışında Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva, təhsil naziri Elxan Nəcəfov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, eləcə də mərkəzin benefisiarlarından Yusif Qasımlının nənəsi Nəhayət Allahverdiyeva çıxış ediblər.

Natiqlər ölkəmizdə sosial həssas qrupların cəmiyyətə inteqrasiyasının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulayıblar.

Tədbir çərçivəsində Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyəti haqqında hazırlanmış videoçarx nümayiş olunub. Mərkəzin musiqi terapiyası bölməsinin benefisiarlarının ifasında bədii kompozisiya təqdim edilib.

Sonra mərkəzin fəaliyyətinə verdikləri töhfələrə görə müxtəlif təlimçilər və benefisiarlar təltif olunublar.

Tədbirin sonunda benefisiarların əmək və rəsm terapiyası bölmələrində hazırladıqları əl işləri və rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib. Nümayiş olunan hər bir əsər müəllifinin şəxsi hekayəsini, yaradıcılıq bacarıqlarını və emosional dünyasını özündə əks etdirir. Sərgi ziyarətçilərinə əsərlər və onların müəllifləri haqqında məlumat əldə etmələri məqsədilə rəsm əsərlərinin üzərinə QR kodlar yerləşdirilib.

# Ordubad rayonunun Salamməlik stansiyası ərazisində tikinti işlərinə start verilib



“Azərbaycan Dəmir Yolları” QSC Naxçıvan Muxtar Respublikasında dəmir yolu infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi üçün layihələndirmə işlərini başa çatdırıb. Hazırda olduğumuz məntəqədə – Ermənistanla sərhəddə, Ordubad rayonunun Salamməlik stansiyası ərazisində tikinti işlərinə start verilib”.

Bu sözləri “Şərq qapısı”na açıqlamasında “Azərbaycan Dəmir Yolları” QSC-nin sədr müavini Arif Ağayev deyib.

O qeyd edib ki, tikinti işləri 188 km-lik dəmiryol xəttini əhatə edir. Məqsəd müasir tələblərə cavab verən yeni dəmir yolu şəbəkəsinin qurulmasıdır. Əsaslı təmir işləri başa çatdıqdan sonra dəmir yolunun illik yükötürmə qabiliyyəti 15 milyon ton təşkil edəcək.

“Bildiyiniz kimi, 2025-ci ilin avqustun 8-də Vaşinqtonda cənab Prezident növbəti tarixi zəfərə imza ataraq “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun (TRIPP) açılmasına dair razılaşmanın imzalanmasına nail olub. Bu razılaşma çərçivəsində dəhliz boyunca dəmir yolu əlaqəsi bərpa olunacaq. Zəngəzur dəhlizi Orta Dəhlizin mühüm tərkib hissəsi kimi Avropa və Asiya arasında yükdaşımalarda mühüm marşrut kimi qiymətləndirilir. Zəngəzur dəhlizi həm də Şimal-Cənub dəhlizinin əsas halqalarından birini təşkil edəcək”, – deyə Arif Ağayev əlavə edib.

# Sosial qayğıya ehtiyacı olan uşaqlar qış geyimi ilə təmin edilib



Noyabrın 29-da “Konstitusiya və Suverenlik İli” çərçivəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən sosial qayğıya ehtiyacı olan uşaqların qış geyimi ilə təmin olunması məqsədilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, aparılan uğurlu dövlət uşaq siyasətinin nəticəsində Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uşaqlara xüsusi qayğı ilə yanaşılır. Onların hərtərəfli inkişafı təmin edilir, problem və qayğıları araşdırılır və həlli istiqamətində tədbirlər həyata keçirilir. Muxtar respublikada bütün uşaqlar dövlət qayğısı ilə əhatə olunur, onların sağlam böyüməsi, biliklərə yiyələnməsi, intellektual inkişafı, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər gənclər kimi formalaşması diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva qeyd edib ki, uşaqların sağlam və təhlükəsiz şəraitdə böyüməsi, onların hüquqlarının müdafiəsi və rifahlarının yüksəldilməsi ölkəmizdə həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindəndir.

Sosial qayğıya ehtiyacı olan uşaqların qış geyimi ilə təmin edilməsi məqsədilə keçirilən tədbir bu istiqamətdə aparılan işlərin davamıdır. Günay Rzayeva Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən uşaqların hüquq və mənafelərinin qorunmasının daim diqqətdə saxlanıldığını bildirib.

Sonra uşaqların himayədarlarından Lətif Bağırov, Qəndab Bayramova və Fatma Həmidova göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Tədbir çərçivəsində uşaqlarla da səmimi söhbət aparılıb, onların fikirləri dinlənilib.

Sonda komitə tərəfindən 46 valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, 4 aztəminatlı ailədən olan, ümumilikdə, 50 sosial qayğıya ehtiyacı olan uşağa qış geyimləri təqdim edilib.

## Baş redaktordan
### Sara ƏZİMOVA

# Addım-addım Zəngəzura Salamməlikdən salamlar



Təqvim 2025-ci ilin 5 dekabrını göstərir. Bu gün Naxçıvan Muxtar Respublikasında dəmir yolu infrastrukturunun yenidən qurulması və modernləşdirilməsi üçün layihələndirmə işləri başa çatdırılıb. Hazırda olduğumuz məntəqədə – Ermənistanla sərhəddə, Ordubad rayonunun Salamməlik stansiyası ərazisində tikinti işlərinə start verilib. Tikinti işləri 188 kilometrlik dəmiryol xəttini əhatə edir. Məqsəd müasir tələblərə cavab verən yeni dəmir yolu şəbəkəsinin qurulmasıdır. Əsaslı təmir işləri başa çatdıqdan sonra dəmir yolunun illik yükötürmə qabiliyyəti 15 milyon ton təşkil edəcək. Dəhliz boyunca dəmir yolu əlaqəsi bərpa olunacaq. Zəngəzur dəhlizi Orta Dəhlizin mühüm tərkib hissəsi kimi Avropa və Asiya arasında yükdaşımalarda mühüm marşrut kimi qiymətləndirilir. Zəngəzur dəhlizi həm də Şimal-Cənub dəhlizinin əsas halqalarından birini təşkil edəcək. Həmkarlarımızla birlikdə tarixin yeni səhifəsini yazan anın içindəyik. Media nümayəndələri bu böyük günün sevincini tamaşaçıya, oxucuya, izləyiciyə çatdırmaq üçün həyəcanla reportajlar hazırlayır, Vətənin gələcəyinə açılan yolun hər kadrını qeyd edir.

“Azərbaycan Dəmir Yolları” QSC-nin təşkil etdiyi mediatur bizə uzun illərdir, sükuta qərq olmuş bu torpağın yenidən oyanışını hiss etdirdi.

Qeyd edək ki, 2025-ci ilin avqustun 8-də Vaşinqtonda cənab Prezident növbəti tarixi zəfərə imza ataraq “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun (TRIPP) açılmasına dair razılaşmanın imzalanmasına nail olub.

Prezident İlham Əliyevin illərdir, ardıcıl şəkildə həyata keçirdiyi strateji siyasətin, tarixi ədalətin bərpasına yönəlmiş qətiyyətli iradəsinin növbəti təntənəsinə şahidlik edən jurnalistlər kimi biz bu həqiqəti təqdim etməkdən qürur duyuruq.

Otuz ildən artıq susmuş bir stansiya bu gün ilk dəfə nəfəs alır. Salamməlik stansiyasına hər gəlişimizdə köhnə relslərin üstünə çökmüş bir həsrət, bir nisgil duyulurdu. Sanki relslər illərdir, öz sahibini, öz səsini, öz yolçusunu gözləyirdi.

Bu səhər isə burada hər şey dəyişdi. Torpaq sanki silkələndi, relslər titrədi, sükutun içindən gələcəyə uzanan bir çağırış eşidildi. Bu çağırış Prezident İlham Əliyevin “Tarixi torpaqlarımıza qayıdış” siyasətinin növbəti addımının səsi idi. Çünki bu yol, sadəcə, dəmir yolu deyil, bu yol Vətənin can damarlarını birləşdirən böyük hədəfin yoludur. Bu yol Azərbaycanın siyasi iradəsinin, əzminin, birliyinin və gücünün simvoludur.

Biz 30 ildən sonra yenidən dirilən Salamməlik stansiyasından ayrılarkən hər addımda relslər pıçıldayırdı “Mən qayıdıram...”

Araz yenə coşurmuş kimi, dağlar yenə səslənirmiş kimi idi. Sanki torpaq özü danışırdı – bu dönüşün sevincini, bu yolun gələcəyini bizə söyləyirdi.

Bu dəfə yol keçmişə boylanmaq üçün yox, gələcəyə doğru addımlayan güclü Azərbaycanın öz qapısını açır. Və biz – bu günü yaşayanlar illər sonra fəxrlə deyəcəyik “Biz o stansiyanın yenidən nəfəs aldığı gün orada idik. Prezident İlham Əliyevin rəhbərliyi ilə başlayan böyük dönüşün şahidi idik”.

Tarixin yaddaşına düşən ən səsli anlar bəzən bir qatarın hərəkət səsi ilə başlayır, bəzən də bir xalqın otuz ildən sonra gələn möhtəşəm “Qayıdıram!” nidası ilə…

# Nehrəm qəsəbəsi uğurlu addımlarla sabaha irəliləyir

***Fəslin sarımtıl-qızılı rənglərə boyadığı ağacların, topa-topa buludlarla əhatələnmiş mavi səmanın, artıq soyuq nəfəsini hiss etdiyimiz payızın küləkli günlərinin birində Babək rayonunun qədim tarixə malik olan Nehrəm qəsəbəsinə yola düşürük. Yolboyu gözəl təbiət mənzərələrini seyr edir, havasını udduğumuz, suyundan içdiyimiz doğma Naxçıvanımızın əsrarəngizliyinə bir daha şahid oluruq. Axı köksündə böyüdüyün Vətən torpağından əziz nə ola bilər? Günəşin dincələrək yorğunluğunu atdığı və yenidən öz vəzifəsinə qayıtdığı yeni bir günün sabahında yol aldığımız Araz çayının sol sahilində, Naxçıvan şəhərinə yaxın məsafədə yerləşən Nehrəm qəsəbəsinə çatmaq elə də çox vaxtımızı almır.***











Budur, artıq tarixi abidələri, ziyalıları, görkəmli şəxsiyyətləri və daha sadalamadığımız bir çox cəhətləri ilə ad qazanmış qəsəbədəyik. Yaşayış məntəqəsinə daxil olduğumuz andan bu yurd yerinin növrağı diqqətimizi cəlb edir. Burada gedən tikinti-quruculuq işləri isə Nehrəmin müasirliyindən – artıq qəsəbə deyil, şəhər görkəminə büründüyündən xəbər verir. Qədimliklə müasirliyin vəhdət yaratdığı bu qəsəbəni dolaşarkən insan keçmişlə bu gün arasında körpü qurur. Bir yandan tariximizi yaşayır, bir yandan da müasir dövrün nəbzini tuturuq.

Yaşayış məntəqəsinin adı 1590-cı ildə Naxçıvan, 1728-ci ildə isə Qışlağat nahiyələrində qeydə alınıb. Filologiya elmləri doktoru, mərhum Adil Bağırov özündən əvvəlki tədqiqatlara əsaslanaraq təsdiq edir ki, Nuh Peyğəmbər ilk dəfə Naxçıvan ərazisində (Gəmiqayada) quruya çıxdığı zaman onun adamlarının məskən saldığı kəndlərdən biri də Nehrəm olub. Bu ad da Nuh Peyğəmbərin adı ilə bağlıdır. Digər tədqiqatçılara görə, “Nehrəm” adı “nəhr” sözündən götürülüb. Qəsəbənin belə adlandırılmasına səbəb isə Naxçıvançayla Əlincəçayın kəsişdiyi ərazidə, Araz çayının suyu bol olan hissəsində yerləşməsidir.

Qeyd edək ki, dövlət başçısının imzaladığı “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” 2020-ci il 12 iyun tarixli Sərəncamına əsasən Nehrəm kəndi qəsəbə statusu almışdır. Qəsəbənin insanları da bu torpaq kimi doğma və səmimi olduğundan ilk görüşdən bizi mehriban qarşılayır, soraqlaşa-soraqlaşa Nehrəm bələdiyyəsinin də yerləşdiyi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binasına yönəlirik. Gülər üzü, şirin ləhcəsi ilə bizi Nehrəm bələdiyyəsi sədrinin müavini, Babək rayon Ağsaqqallar Şurasının sədri Tofiq Abutalıbov qarşılayır. Onunla hal-əhval tutduqdan sonra bu gözəl yurd yeri haqqında suallarımızı Tofiq müəllimə yönəldirik. Ömrünü-gününü bu torpağa həsr edən Tofiq Abutalıbov deyir: “Nehrəm ən böyük yaşayış məntəqələrindən biridir. Hazırda qəsəbənin əhalisinin sayı 17 min 136 nəfərdir. Dövlətin diqqət və qayğısı sayəsində bu ilin ilk aylarında Nehrəm qəsəbəsində 3 min evə içməli su və kanalizasiya xətləri çəkilmişdir. Bu gün qəsəbədə 3 orta məktəb, 1 muzey, 1 musiqi məktəbi fəaliyyət göstərir. Məktəblərdən birində təmir işləri aparılır. Burada, həmçinin minifutbol meydançası da yaradılıb. Sakinlərin sağlamlıq problemlərinin uzağa getmədən, yerində həll edilməsi üçün hər cür şəraitlə təmin olunmuş xəstəxana və doğum şöbəsi də fəaliyyətdədir. Bu il Nehrəm qəsəbəsində 3 nömrəli məktəbin yanında 30 yerlik uşaq bağçasının tikintisi üçün yer ayrılıb”.

Müsahibim deyir ki, Nehrəmin problemlərindən biri suvarma suyudur. Belə ki, Nehrəm Naxçıvan çayı və Əlincə çayından qidalanır, lakin məlum səbəbdən hər iki çayda su azaldığından insanlar yalnız Araz çayı üzərindən suvarma suyundan istifadə edir. Ölkə Prezidentinin qayğısı sayəsində bu gün Araz çay nasos stansiyasında yenidənqurma işləri həyata keçirilir və artıq 9 kilometrədək məsafədə yeni su boruları çəkilmişdir.

Əhalinin əsas məşğuliyyətinin aqrar sahə ilə bağlı olduğunu bildirən Tofiq müəllim deyir ki, burada insanlar daha çox bitkiçilik və heyvandarlıqla məşğul olurlar. Son illərdə 120 sahibkar yeni iş yerləri açmışdır. Bunlar arasında ictimai iaşə, ticarət və sair üstünlük təşkil edir. Yaxşı haldır ki, artıq qadınlar da ticarətin müxtəlif sahələrində fəaliyyət göstərirlər.

Tofiq müəllimin sözlərinə görə, muxtar respublikada sahibkarlığın inkişafına hərtərəfli dəstək göstərilir. Burada yaşayan fermerlər güzəştli şərtlərlə kredit götürərək traktor, kotan, yedək, səpin, şum aqreqatları və sair alırlar. Bu gün Nehrəm bazarında bolluqdur. Buraya, hətta başqa yaşayış məntəqələrindən də məhsul gətirilir.

Nehrəmin keçmişindən söhbət açan müsahibim deyir ki, qəsəbə ərazisində bir çox qədim abidələrin olması buranın zəngin keçmişindən xəbər verir. Ermənilərin Naxçıvana hücumu zamanı Andronikin qoşunları Nehrəmə hücum etmək istərkən hazırlıqlı olan nehrəmlilər onları topla, tüfənglə qarşılayır və bu hücumun qarşısını alırlar. Bu əsnada bir qadının dediyi şeirin iki misrasını xatırlayır Tofiq müəllim:

*Yeri ha, yeri, a köpəy Andrey,*
*Nehrəmlilər göydən quşu yendirey.*

Söhbətinə davam edərək bildirir: “O vaxt ağsaqqallar deyirdilər ki, qadınları, uşaqları məscidlərə yığan Nehrəm kişiləri onları gizlədiblər ki, özləri ölsələr də, onlar ələ keçməsin. Tofiq müəllimin bu sözlərini dinlədikcə Ulu Öndərin Nehrəm haqqındakı dəyərli fikirləri yadıma düşür. 1999-cu ildə Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı zamanı görkəmli dövlət xadimi Heydər Əliyev Nehrəm və onun insanlarına böyük rəğbətini bildirərək demişdir: ***“…Nehrəm qeyrətli insanlar kəndidir…Mən o kəndi həmişə sevmişəm... Elə bir C.Məmmədquluzadə kimi şəxsiyyəti dünyaya gətirdiyinə görə bu Nehrəm kəndi xüsusi hörmətə malikdir. Amma tək bunlara görə yox. Orada çox qəhrəmanlar yaşayıbdır həmişə. Oranın xüsusi mühiti var”.***



Söhbət Cəlil Məmmədquluzadədən düşmüşkən dahi yazıçı və dramaturqun xatirə muzeyinə getməyə tələsirik. Cəlil Məmmədquluzadənin ömrünün müxtəlif illərində müəllimlik fəaliyyəti ilə məşğul olduğu Nehrəmdə onun və ailə üzvlərinin xatirələrini daşıyan muzeydə yazıçının çətinliklərlə dolu həyatı ilə tanış oluruq. 3 ekspozisiya zalından ibarət olan muzeydə 1126 eksponat qorunub saxlanır. Yazıçının dərs dediyi dövrlərdə istifadə etdiyi lövhə isə bu gün muzeyin ən gözəl guşəsində sərgilənir.

Qəsəbəni gəzərkən dahi rəhbərin adını daşıyan park diqqətimizi cəlb edir. Qəsəbənin görkəminə xüsusi gözəllik qatan bu park 1 hektardan ibarətdir. Parkda insanların istirahəti üçün şərait yaradılıb. Parkın ortasında isə üçrəngli bayrağımız qürurla dalğalanır.

Nehrəm görkəmli şəxsiyyətləri ilə yanaşı, igidləri ilə də ad qazanmış, Birinci və İkinci Qarabağ müharibələrində 15 şəhid vermişdir. Burada 1941-1945-ci illər müharibəsində həlak olanların ruhuna ehtiram əlaməti olaraq abidə yaradılmışdır.

Nehrəm əhalisi dini etiqada sıx bağlı olduğundan qəsəbənin hər tərəfində bir məscidin yerləşdiyinə şahid oluruq. Öyrənirik ki, Nehrəmdə 13 məscid var və bunlardan bir neçəsi qədim tarixə malikdir. Güllü, Xəndək, Çaylaq, Hacı Mehdi kimi məscidlər dövrünün izlərini hələ də üzərində daşıyır. Burada yerləşən maraqlı, eyni zamanda qədim tikililərdən biri İmam Hüseynin nəvəsi Seyid Əqil ağanın məzarı yerləşən XVIII əsrə aid İmamzadədir. Tavanı müxtəlif formalı və rəngli ornamentlərlə bəzədilmiş bina bu gün də əhalinin ziyarət etdiyi müqəddəs məkanlardandır. Qəsəbədə həm də yas mərasimlərini keçirmək üçün mərasim evləri tikilib.

Nehrəm savadlı həkimləri ilə də tanınır. Bu qədim yurd yerində yetişən həkimlər bu gün muxtar respublikamızda insanların sağlamlığı yönündə əllərindən gələni əsirgəmirlər. Belə həkimlərimizdən bir də uzun illərdir, öz sahəsində qüsursuz fəaliyyəti ilə seçilən Nehrəm Qəsəbə Ailə Sağlamlıq Mərkəzinin direktoru, Azərbaycan Respublikasının Əməkdar həkimi Hüseyn Niftəliyevdir: “Burada doğulmuş, burada boya-başa çatmışam. Nehrəmin dünəni ilə bu günü arasında yerlə göy qədər fərq var. Tozlu-torpaqlı, palçıqlı küçələr, təhsil tələblərinə cavab verməyən məktəb, burada fəaliyyət göstərən idarə və təşkilat binaları və digər çatışmayan cəhətləri görmüş, o günləri mən də yaşamışam. Bu, dünənin mənzərəsidir. Bu gün necədir bəs? Yəqin ki, Nehrəmdə olduğunuz bir neçə saat ərzində özünüz gördünüz. Onu da deyim ki, Nehrəmin inkişaf yolunun təməli Ulu Öndərin ölkəmizə rəhbərliyi dövründə qoyulub. 1969-cu ildə, ikinci dəfə hakimiyyətə gələndə bu qayğı daha yüksək səviyyədə davam etdirildi. İnsanlar da göstərilən belə diqqət və qayğı hesabına doğma yurd yerinə daha möhkəm bağlandılar.

Qeyd etdiyimiz kimi, qəsəbədə heyvandarlıq, əkinçilik, bostançılıq, bağçılıq xüsusi yerə sahibdir. Heyvandarlıq sahəsində uzun illər əmək sərf edən Cəfərqulu Babayevlə həmsöhbət oluruq. Öyrənirik ki, Cəfərqulu dayı və ailəsi heyvandarlıqla məşğul olur. Dədə-babadan bununla məşğul olduqlarını bildirən müsahibim çətin olmasına baxmayaraq, bu işi görməkdən zövq aldığını söyləyir. 10 hektara yaxın pay torpağının 8 hektarında taxıl, 2 hektarında yonca əkini həyata keçirən Cəfərqulu dayının ərik və göycə ağaclarından ibarət meyvə bağı da var.

Dövlətin qayğısı ilə əhatə olunan təsərrüfatçı güzəştli şərtlərlə 15 illik kredit götürmüş, işini daha da böyütməyə müvəffəq olmuşdur. Min bir zəhmətlə saxladığı malqaranı satmaqla gəlir qazanan ailə, həmçinin pendir, qovurma kimi məhsulları da Bakıdakı ticarət obyektlərinə göndərməklə qazanc əldə edirlər. Necə deyərlər, zəhmətlə yeyilən acı soğan minnətlə yeyilən baldan şirindir. Hər nə qədər əziyyətə qatlaşsalar da, bu gün əməyinin qarşılığını misli ilə görür Cəfərqulu dayı. Biz də, öz növbəmizdə, qonaqpərvərliyinə və səmimi söhbətinə görə Cəfərqulu dayıya və ailəsinə işlərində uğurlar arzulayırıq.

Nehrəmdən xoş təəssüratlarla ayrılırıq. Qəsəbədə aparılan tikintilərə baxanda görürük ki, bu yaşayış məntəqəsi durmadan dəyişir, gözəlləşir, inkişaf edir. Hər tikilən ev, hər abadlaşdırılan küçə bu gözəl yurd yerinin sabaha daha uğurlu addımlarla irəlilədiyini göstərir. Əminik ki, neçə-neçə dahi şəxsiyyətlərin yurdu olan bu məkanda böyüyən gənclər özlərindən əvvəlkilərin yolunu davam etdirəcək, Nehrəmin şöhrətini daha da yüksəldəcəklər. Bura ilə vidalaşarkən bir duyğu bürüyür qəlbimizi – Bu Nehrəmin uğurlu gələcəyinə sonsuz inamdır. İnanırıq ki, bu yurd yeri gələn görüşlərdə daha fərqli bir görkəmdə bizi qarşılayacaq. O günədək isə hələlik.

**Türkanə ƏSƏDOVA**








# Naxçıvanda STEAM təhsili: *gələcəyin peşələrinə açılan yol*

*İnkişafa gedən yol təhsildən keçir. Son illər ölkəmizdə əldə olunan inkişaf və tərəqqinin də təməlində məhz müasir və mütərəqqi təhsil sisteminin formalaşdırılması və intellektual gəncliyin yetişdirilməsi dayanır. Bunu bu gün muxtar respublikanın timsalında da görmək olar. Qədim diyarımızda müasir və innovativ yeniliklərə dayanan şərait, gənclərin savadlı, zəngin dünyagörüşlü və vətənpərvər ruhda böyüməsi üçün yeni təhsil metodlarından səmərəli istifadə dediklərimizi bir daha təsdiq edir. Bu baxımdan, muxtar respublikada yaradılan müasir təhsil mühiti xüsusi əhəmiyyət daşıyır. Elə bunun bir nümunəsi kimi biz də bu günlərdə STEAM Mərkəzində innovativ təhsil mühitini yaxından müşahidə etdik.*

Öyrəndik ki, mərkəzdə yaradılan müasir şərait şagirdlərə öz potensiallarını real layihələr üzərində sınamağa imkan verir. Ən müasir texnologiyalar, modullar, sensorlar və innovativ alətlərlə tanış olan gənclər artıq yalnız xəyal etmək deyil, ideyalarını gerçəyə çevirmək fürsəti qazanırlar. Bu isə onların özünəinamını artırır, araşdırmağa, qurmağa, kəşf etməyə təşviq edir. Nəticə olaraq bu gün şagirdlərimiz sərhədləri aşmağa hazır, daim öz üzərində çalışan, yenilikçi düşüncəyə malik bir nəsil kimi formalaşırlar. Məlumat üçün bildirək ki, mərkəzdə KİDS, 3D Dizayn, CNC-Lazer texnologiyaları, Pilotsuz Uçuş aparatları, Proqramlaşdırma, Robotexnika, eləcə də İdeya Emalatxanası kimi xüsusi tədris bölmələri fəaliyyət göstərir. Hər kabinə özünəməxsus praktik yanaşması ilə seçilir və şagirdlərin düşünmə tərzini yeni səviyyəyə yüksəltməkdə böyük əhəmiyyət daşıyır. Mərkəzdə təhsilin əsas hədəfi şagirdlərin müstəqil şəkildə robot hazırlamaq bacarığı qazanmasıdır. Bu məqsədlə təhsil alan gənclər hər il fərqli kabinələrdə bilik və təcrübələrini genişləndirirlər. Onlar əvvəlcə əsas mühəndislik düşüncəsini, daha sonra dizayn, proqramlaşdırma və mexaniki quruluşların qurulması prinsiplərini mənimsəyir, nəticədə isə tam sərbəst şəkildə öz robotlarını yarada biləcək səviyyəyə çatırlar. Yəni şagirdlər burada yalnız nəzəri biliklərlə kifayətlənmir, həm də real layihələr üzərində çalışaraq komanda işi, problem həlli və yaradıcılıq kimi bacarıqlarını inkişaf etdirirlər. Bu isə onların gələcək peşə seçimində mühüm rol oynayır.




Mərkəzdə yetişən gənclərin uğurları artıq yerli və respublika miqyaslı yarışlarda özünü göstərməkdədir. Onların hazırladıqları layihələr həm texniki baxımdan, həm də ideya orijinallığı ilə diqqət çəkir. Mərkəzdə təhsil alan hər bir şagirdin fərqli bacarığı var: kimisi mühəndislik, kimisi proqramlaşdırma, kimisi elektronika və dizayn sahəsində fərqlənir. Bəziləri isə komanda işinin təşkili və liderlik bacarıqları ilə seçilirlər. Bununla belə onları birləşdirən ən mühüm xüsusiyyət alqoritmik düşünmə və problem həlletmə bacarıqlarıdır ki, bu da yarışlarda əldə edilən uğurların əsasını təşkil edir. Mərkəzin ümumtəhsil məktəbləri ilə əməkdaşlığı da xüsusi qeyd olunmalıdır. Bu əməkdaşlıq sayəsində istər şagirdlərin, istərsə də STEAM müəllimlərinin üzləşdiyi çətinliklərə operativ şəkildə dəstək göstərilir.

Bu gün artıq adını ölkə üzrə innovasiyanın ön sıralarında görməyə alışdığımız mərkəz ötən illər ərzində saysız-hesabsız uğurlara imza ataraq STEAM təhsilinin regionda inkişafına mühüm töhfə verib. Burada yetişən gənc mühəndislər, proqramçılar və pilotlar təkcə yerli deyil, beynəlxalq arenalarda da Azərbaycan Bayrağını qürurla dalğalandırırlar. Beləliklə, mərkəz ardıcıl şəkildə beynəlxalq yarışlarda sabit və güclü komanda imicini qorumağı bacarıb. 2025-ci il mərkəzin tarixində xüsusi səhifə kimi qalacaq. Sentyabr ayında keçirilən Dünya Robot Olimpiadasında Robosport kateqoriyasında yenidən 1-ci yer qazanılmış, üç şagird Azərbaycan milli komandasının tərkibinə seçilərək Sinqapurda keçiriləcək böyük finalda ölkəmizi təmsil etmək hüququ qazanmışdır. Hazırda həmin şagirdlərimiz Sinqapurda yarışa hazırlıqlarını davam etdirirlər. Bu böyük nailiyyətlərin ardınca mərkəzin komanda ruhu daha bir möhtəşəm uğurla tamamlanıb. Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalında Mərkəz 10 komanda ilə təmsil olunub və nəticələr yüksək olub: müxtəlif kateqoriyalarda 3 qızıl, 1 gümüş, 4 bürünc medal, həmçinin "Ən yaxşı pilot" nominasiyası üzrə xüsusi mükafat qazanılıb.

Mərkəzin təcrübəli məşqçiləri və şagirdlər bildirirlər ki, beynəlxalq yarışlarda iştirak təkcə böyük məsuliyyət deyil, həm də ciddi hazırlıq tələb edən bir prosesdir. Belə turnirlərdə tapşırıqlar daha çətin, rəqiblər isə kifayət qədər güclü olur. Bu da iştirakçılardan həm texniki bilik, həm də psixoloji dayanıqlıq tələb edir. Yarışların bəzilərində kateqoriyanın şərtlərinə uyğun olaraq dost komanda seçmək və onlarla əməkdaşlıq etmək zərurəti yaranır. Məhz bu məqamda müxtəlif dillərdə danışan iştirakçılar arasında anlaşma çətinliyi özünü göstərir. Lakin bu çətinliklər, əslində, gənclər üçün böyük üstünlüklərə çevrilir: onlar beynəlxalq mühitdə işləməyi, fərqli ölkələrin təmsilçiləri ilə komanda şəklində fəaliyyət göstərməyi, təcrübə mübadiləsi etməyi və dostluqlar qurmağı öyrənirlər.

Mərkəzin kollektivi inanır ki, davamlı hazırlıq, düzgün istiqamət və komanda işi sayəsində gələcək beynəlxalq yarışlar daha böyük nailiyyətlərlə yadda qalacaq. Mərkəzdə onu da öyrəndik ki, yarışlara hazırlıq prosesi sistemli şəkildə qurulur və ən əvvəl şagirdlər bacarıqlarına uyğun olaraq fərqli komanda və kateqoriyalara bölünürlər. İlkin mərhələdə komandalar seçdikləri kateqoriyanın texniki tələbləri, qaydaları və tapşırıqları ilə tanış edilir. Bu, gələcək mərhələlərdə düzgün strategiya qurmaq baxımından xüsusi əhəmiyyət daşıyır. Daha sonra yarış təşkilatçıları tərəfindən göndərilən tapşırıqlar icra olunur. Bütün tapşırıqları tələblərə uyğun şəkildə yerinə yetirən komandalar final mərhələsinə vəsiqə qazanırlar. Finala yüksəlmiş komandalar üçün mərkəzdə xüsusi hazırlıq təlimləri təşkil olunur. Bu prosesdə şagirdlər öz layihələrini təkmilləşdirir, mövcud çatışmazlıqları aradan qaldırır, rəqibləri analiz edərək yeni strategiyalar üzərində mentorlarla birlikdə çalışırlar. Bu istiqamətdə görülən işlərin nəticəsi kimi, mərkəzin komandaları həm respublika, həm də beynəlxalq yarışlarda üstün nəticələrlə çıxış edərək ölkəmizin adını layiqincə ucaldırlar. Bu gün davamlı olaraq təhsil sahəsində həyata keçirilən islahatlar və bu islahatların uğurlu nəticələri bir daha əmin olmağa əsas verir ki, təhsilimiz muxtar respublikanın, bütövlükdə isə ölkənin işıqlı gələcəyinə xidmət edir.

✍ **Bülbül RÖVŞƏNQIZI**



## Simfonik Orkestrin kino musiqilərindən ibarət konserti keçirilib





Naxçıvan Dövlət Filormaniyasının Simfonik orkestrinin Heydər Əliyev Sarayında keçirilən konsertində dünyaca məşhur "Şindlerin siyahısı", "1492: cənnətin fəthi", "Taxt-tac oyunu", həmçinin Azərbaycan istehsalı olan "Babək", "Güllələnmə təxirə salınır", "Sehrli xalat" kimi filmlərdən musiqilər səsləndirilmişdir. Bunlarla yanaşı, Prezident mükafatçısı İlkin Abdullayevin ifasında "Nizami" filmindən Üzeyir Hacıbəylinin "Sənsiz" romansı, Prezident mükafatçısı Sahil Qasımov tərəfindən "Xaç atası" filmindən, beynəlxalq müsabiqələr laureatı Emin Hüseynovun ifasında Çarli Çaplinin "Müasir zamanlar" filmindən "Gülümsə", eləcə də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən 2 nömrəli incəsənət məktəbinin müəllimi Aysel Eminlinin ifasında ölkədə ilk dəfə olaraq pan fleyta alətində "Billi öldürməli" filmindən "Tənha çoban" musiqi nömrələri də təqdim olunub.

Konsertdə simfonik orkestrin ifasında səslənən musiqilərlə yanaşı, Naxçıvan Dövlət Film Fondu tərəfindən hər bir film üçün hazırlanmış videoçarxlar da nümayiş olunub.

Qeyd edək ki, orkestrin bədii rəhbəri və dirijoru Cahangir Qurbanovdur.

## Naxçıvanda fəaliyyət göstərən könüllülər Azərbaycan Könüllülərinin VIII Həmrəylik Forumunda iştirak ediblər



Bakı Konqres Mərkəzində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş və ölkənin müxtəlif bölgələrindən olan 3 mindən çox fəal gənci bir araya gətirən Azərbaycan Könüllülərinin VIII Həmrəylik Forumu keçirilib.

Tədbirdə Gənclər Fondunun Naxçıvan filialının direktoru Arzu Qasımov, Naxçıvanda fəaliyyət göstərən könüllü gənclər, o cümlədən "Şərq qapısı" qəzetinin əməkdaşı Elnurə Cəfərova da iştirak edib.

Forum Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi və "ASAN xidmət" mərkəzinin tərəfdaşlığı ilə baş tutub.

Könüllülük hərəkatının ölkədə daha da genişlənməsi, gənclərin sosial məsuliyyətinin artırılması və onların cəmiyyətin inkişafında fəal iştirakına dəstək vermək məqsədilə keçirilən forumda karyera imkanlarını genişləndirən müxtəlif sərgi və müzakirələr təşkil olunub.

Forumun rəsmi açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciəti səsləndirib.

Tədbir çərçivəsində gənclərin könüllülük fəaliyyətində fərqlənmələrini qiymətləndirmək məqsədilə 2025-ci il üzrə "İlin könüllüsü" mükafatı 5 nominasiya üzrə təqdim edilib. Naxçıvandan olan bir sıra fəal gənclər də həm "İlin könüllüsü" mükafatına, həm də xüsusi fərqlənmə diplomuna layiq görülüblər.

Sonda forum iştirakçılarının xatirə fotosu çəkilib.

# Təndir çörəyinin ətri

Babək rayonunun Nəzərabad kəndinə yolu düşən hər kəs yol kənarında qurulan təndirdə bişən Naxçıvan lavaşının ətrini hiss edəndə ayaq saxlayıb bu lavaşın dadına baxmadan keçmir. Elə biz də unutmaq üzrə olduğumuz bu dadı hiss etmək üçün yolüstü dayanıb zəhmətkeş xanımların bişirdiyi lavaşın dadına baxdıq. Az qala unutduğumuz deyirəm, çünki müasir texnologiyalar çörəyin və lavaşın da bişirilmə qaydasına təsirsiz ötüşməyib. Düzdür, bu müasir bişirmə qaydaları qadınların çörəkbişirmə işini yüngülləşdirib, amma gəlin hamımız etiraf edək ki, təndirdə, üzüm, tut ağacının odunun közündə xəmrə ilə yoğrulan xəmirdən hazırlanan əsl Naxçıvan lavaşının dadı heç bir yerdə yoxdur. Bu çörəyin nə ətrini, nə də ki dadını dünyanı gəzsək, tapa bilmərik.







Qonaqpərvərliyi ilə seçilən diyarımızın zəhmətkeş xanımlarından biri olan ev sahibi Güllər xanım bizi təndirdən çıxan xam lavaşla Naxçıvanın ovma pendirinə qonaq edir. Təndir başında əyləşib çörək taxtasında oxlovla lavaş açan 64 yaşlı Çimnaz xanımın kündəni necə məharətlə oxlovun altında lavaşa çevirdiyini izləyərkən o söhbətə başlayır. Deyir ki, əvvəllər hər kəsin həyətində "təndir damı" olardı ki, hər kəs oradakı təndirdə çörək yapar, bəzən də yemək bişirərdi. Təndir qoymaq, düzəltmək üçün palçıq hazırlanacaq torpaq təmiz hesab edilən yerdən götürülməli, təndir qoyan insan mütləq paklanmalıdır. Təndir hazırlanıb başa çatdıqdan sonra bərəkətli və arxalı, yəni istiliyi çox saxlasın deyə onun badına ilk çörək yapılmadan öncə əvvəlcədən hazırlanmış heyvan ciyəri yapıb, bişirərdik. O vaxtlar indiki imkanlar yox idi. Xəmir yoğurmaq üçün özümüzün hazırladığımız xəmrədən istifadə edərdik. Onu hazırlamaq üçün ovuc buğda 1 stəkan suda qaynadılır, suyu qatılaşanda soyudulur, un əlavə edilib yumşaq xəmir yoğrulur. Acıdıqdan sonra xəmir mayası kimi istifadə edirdik. Xəmrə ilə yoğrulan xəmirdən bişən çörək uzun müddət keyfiyyətini itirməzdi. Xəmir yoğrulanda xəmrəni yenisi ilə, yəni yoğurduğumuz xəmirdən bir parça götürməklə növbəti dəfə çörək yapmaq üçün xəmrəlik götürər, növbəti dəfə onu təzələyərdik.

Çimnaz xanım deyir ki, onlar indi də həmin üsuldan istifadə edirlər. Onu da bildirir ki, əsl Naxçıvan lavaşına dad verən də elə xəmrədən istifadə olunmasıdır. Xəmrə həm də xəmirin vaxtından əvvəl süni şəkildə acımasının qarşısını alır. Maya və ya qabartma tozu ilə yoğrulan xəmiri nə yaxşı açmaq olar, nə də ki o xəmirdən açdığımız lavaş təndirdə durar. Xəmiri də yerli undan yoğururuq. Duzumuz da, unumuz da öz torpağımızın məhsuludur.

İsti təndir başında Naxçıvan lavaşının ətrini duyub xanımların söhbətini dinləyəndə qədim adətimiz olan toy çörəyi bişirmə mərasimi gəlir ağlıma. Ev sahibi Güllər xanım həmin illəri yada salır: "Əvvəllər Naxçıvanda oğul, qız toyu edən ailələr toydan qabaq toy çörəyi bişirmək üçün hazırlıq görər, toy çörəyi yapılarkən qonşuları və qohumları "əppək üstə", "təndir başına" dəvət edərdilər. Gələnlər pul, hədiyyələr gətirərdilər. Kömək üçün gələnlər də qonum-qonşu da, qonaqlar da təndir başında bir loxma toy çörəyi yeyərdi. Sonra toy üçün yapılan çörək dəstələnər və sərin bir yerə yığılardı. Ev sahibi "əppək üstə" gətirilmiş pul və hədiyyələrin müəyyən hissəsini çörəkyapanlara verərdi. Toy çörəyi ən azı iki tay, yəni yüz kiloqram undan yapılardı. Toydan bir gün qabaq köməyə gələnlərin içərisindən ən təcrübəliləri seçilər və lavaşı sulamaq onlara tapşırılardı. Çünki lavaşı isladanda diqqətli olmaq, suyu lazım olan qədər vurmaq lazımdır. Çörəyin toyda lazım olan qədərini istifadə edərdilər, qalanı isə xüsusi hazırlanmış çörək sandıqlarında quru şəkildə saxlanılardı".

Xanımların xoş söhbəti davam edir. Lavaşı yapıb bitirən xanımlar təndirdə südlü şirin çörək, dastana bişirib işini yekunlaşdırır.

Qonağı olduğumuz bu məkanda çörək bişirən zəhmətkeş qadınlara tamaşa etdikcə illər öncəni xatırlayıram. Qış fəslinin çox sərt keçdiyi qədim diyarda ailələrin qış tədarükü arasında çörəkyapma adəti də mövcud idi. Qış fəsli gəlməzdən əvvəl, təxminən, noyabr ayında da kənd qadınları hamılıqla toplanar, qohum-qonşu növbə ilə bir-birinə kömək edib qışa lavaş yapardılar. Lavaşın xəmiri yoğrulanda ailə üzvlərinin sayı nəzərə alınardı. Digər çörəklərdən fərqli olaraq quru lavaşı aylarla saxlamaq olur və istənilən vaxt ondan lazım olan qədər sulayıb, istifadə edirlər.

Bu gün həmin toy çörəyi və qış çörəyi bişirilmə adətimiz davam etməsə də, lavaş bişirmə adətimiz hələ də yaşadılır. Və bu adət heç bir zaman unudulmayacaq. Çünki nə qədər müasir üsullar kəşf edilsə də, odun közündə qədim üsullarla bişirilən Naxçıvan lavaşının dadını heç nə əvəz edə bilməyəcək.

**"Şərq qapısı"**

## Yer təkindən istifadə ilə bağlı 22 yanvar 2026-cı il tarixdə saat $11^{00}$-da keçiriləcək hərracın elanı

Hərrac auksion formasında keçiriləcəkdir.

Culfa rayonu "Ərəzin II" gəc-gips (sement xammalı) yatağı

| № | Yatağın adı | LOT | Həcmi | Sahəsi | Faydalı qazıntının növü | İstismar müddəti | Yatağın mərkəzi koordinatı | Başlanğıc qiyməti (manatla) | Beh məbləği (10%) (manatla) | İştirak haqqı (manatla) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Ərəzin II | LOT-1 | 175 341$m^3$ | 11,9ha | Gəc-gips | 10 ilədək | X-4327783,0 Y-547755,0 | 35 068 | 3506,8 | 540 |

**Hərracın keçiriləcəyi ünvan:** Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6 ("Hərracların Təşkili Mərkəzi" PHŞ inzibati binası).

**Qeyd:** Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər hərracla bağlı məlumat almaq, iştirak haqqı və 10% miqdarında beh məbləğini ödəmək üçün Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edə bilərlər (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42).

Yer təki sahəsindən faydalı qazıntılar çıxarılması üçün hərrac iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalı və hərracda iştirak etmək üçün aşağıdakı sənədləri müraciət ərizəsinə qoşma olaraq təqdim etməlidirlər:

1. Hərracda iştirak etmək üçün yazılı ərizə-müraciət (əlavə olunur);
2. Hərracda iştirak haqqının ödənilməsi barədə bank sənədinin əsli;
3. Hərracda (müsabiqə və auksion) iştirak etmək üçün ödənilən iştirak haqqı (hərrac xərcləri) hərrac predmetinin ehtiyat həcmlərinə münasibətdə aşağıdakı qaydada (lot üzrə) müəyyən edilir:

-Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrədək – 540,00 (beş yüz qırx) manat;

-Ehtiyat həcmi 200 000 (iki yüz min) kubmetrdən 500 000 (beş yüz min) kubmetrədək – 810,00 (səkkiz yüz on) manat;

-Ehtiyat həcmi 500 000 (beş yüz min) kubmetrdən yuxarı olduqda – 1080,0 (bir min səksən) manat.

4. "Vergiödəyicisinin vergi borcu barədə" arayış (müvafiq sənəd elektron qaydada alındıqda notarial təsdiqli olması zəruridir);
5. İddiaçının son bir ildə maliyyə vəziyyəti haqqında bank arayışı (hesabdan çıxarış);
6. İddiaçının tam adı, hüquqi statusu: hüquqi şəxsdirsə – nizamnaməsi, VÖEN-şəhadətnaməsi və dövlət reyestrdən çıxarışı, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; fiziki şəxsdirsə – şəxsiyyəti təsdiq edən sənəd və VÖEN-şəhadətnaməsi (notarial qaydada təsdiqlənmiş);
7. İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar: ən azı 1 dağmədən mühəndisi və ya 1 geoloq ilə bağlanmış əmək müqaviləsinin və onların ixtisasını təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surəti;
8. İddiaçının maddi-texniki bazası (faydalı qazıntıların çıxarılması üçün zəruri texniki vasitələri və avadanlıqları) haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə tərtib olunmalıdır.

İddiaçılar hərracda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 14 yanvar 2025-ci il saat$18^{00}$-a qədər Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 ünvanına (Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası) təqdim etməlidirlər.

Hərracda iştirak etmək üçün hüquqi və fiziki şəxslər nazirliyə "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydalarına" uyğun ərizə (bundan sonra "ərizə") təqdim edir.

Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaqdır.

Hərracda iştirak etmək istəyənlər hər lot üzrə yatağın ehtiyat həcminə uyğun məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 42 (Əlaqələndirici şəxs: Rəsulov Ramiz, telefon: (036) 545-34-85, 050-723-85-25 ) ünvanından ala bilərlər.

| |
|---|
| Hesab: AZ21NABZ12360100000000005944 |
| VÖEN: 0200003621 |
| Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondu |
| Büdcə təsnifat kodu: 142325 |
| Büdcə səviyyəsinin kodu: 2 |

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Hərrac komissiyası tərəfindən hərrac iştirakçısına dəvət məktubu verildikdən sonra 2 (iki) iş günü ərzində başlanğıc qiymətinin 10% miqdarında beh məbləği ödənilməlidir.

Beh məbləği ödənilmədiyi təqdirdə iddiaçı hərraca buraxılmır.

## Kikboksinq üzrə muxtar respublika birinciliyi



Naxçıvan şəhərində "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş kadetlər, yeniyetmələr və gənclər arasında kikboksinq üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib. Yarışda 7 klubdan 120-yə yaxın idmançı, ümumilikdə, 16 dəst mükafat uğrunda mübarizə aparıb.

İdmançılar müvafiq yaş kateqoriyaları və çəki dərəcələrində olimpiya sistemi əsasında yarışıblar. Nəticələrə əsasən kadetlər arasında Mahir Cəfərov (25 kq), Məhəmməd Talıbov (28 kq), Həsən Quluzadə (32 kq), Nəsir Əliyev (37 kq), Orxan Xəlilli (42 kq), yeniyetmələrdə Uğur Məmmədli (37 kq), Ülvi Əliyev (42 kq), Ələmdar Nəcəfov (45 kq), Hidayət Məmmədzadə (47 kq), Ayhan Xəlilli (52 kq), Amin Nəcəfli (55 kq), Kamil Dadaşov (60 kq), gənclərdə isə Tayfur Əliyev (50 kq), Tunar Nəsirli (55 kq), Sinan Kazımov (60 kq) və Ziya Məmmədzadə (65 kq) birinci yerin sahibi kimi qızıl medala layiq görülüblər. İlk üç yerin sahibləri diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

### İtmişdir

Seyidov Mirsamil Mirağa oğlunun adına olan AD-20058254 seriya nömrəli müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusunun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Əliyev Səttar Qurban oğlunun adına verilmiş JN-2264A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Quliyeva Humay Fətullah qızının adına olan JN-1292A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini İsmayılov Orxan Vaqif oğlunun adına olan BD-876228 seriya nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Vənənd kənd sakini Bağırov Məmmədsadıq Mehdi oğlunun adına olan JN-503A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, bina 9 (F bloku), 6-cı mərtəbə, mənzil 3 ünvanında Salayeva Aygül Firəddin qızına məxsus 19348 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Əkbərova Fatma Fərhad qızının adına olan JN-1301A nömrəli, 10209018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

İbrahimov Kamran Nüsrət oğlunun adına verilmiş MN-0049477 nömrəli zabitin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Hacıniyyət kənd sakini İbrahimov Rövşən Qadir oğlunun adına olan JN-069B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkəndində yerləşən Xəlilov Xəlil Həzrətqulu oğluna məxsus JN-119A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini İbrahimov Məhəmmədəli Baxşəli oğlunun adına verilmiş JN-319A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axura kənd sakini Vəliyev Tofiq Əli oğluna məxsus JN-191 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Rəhimov Elşən Muxtar oğluna məxsus JN-1438 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kəndində Mahmudov Mahmud Qocaman oğluna məxsus 24.01.2019-cu il tarixli AA-002451 invertar nömrəli, 103013001032 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 550. Sifariş № 284

Nömrəyə məsul: Nail Əsgərov, Rafiq Təhməzov, Zəhra Vəliyeva

Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.